5 aprel 2023 №25 (1994) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## "TOGG"un ikincisi Bakıya gəldi

### "Bu, Türkiyə sənayesinin növbəti böyük uğurudur"




Türkiyənin ilk yerli elektromobili "TOGG" aprelin 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təqdim olunub.

Dövlət başçısı əvvəlcə Türkiyənin sənaye və texnologiya naziri Mustafa Varank, "TOGG" şirkətinin baş icraçı direktoru və idarə heyətinin üzvləri ilə görüşüb.

Türkiyənin sənaye və texnologiya naziri Mustafa Varank "TOGG" elektromobilinin T10X modelinin açarını dövlətimizin başçısına təqdim edib.

"Türkiyədən ikinci avtomobili Sizə təqdim etmiş oluruq. Bütün türk xalqı ikinci avtomobilin Azərbaycana göndərilməsindən çox məmnundur. Xeyirli-uğurlu olsun. İnşallah, gözəl günlərdə istifadə edərsiniz", – deyə o bildirib.

Prezident İlham Əliyev deyib: "İlk növbədə, əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğana təşəkkürümü bildirirəm ki, ikinci avtomobilin mənə verilməsini tövsiyə edib. Sizə də təşəkkür edirəm, ilk növbədə, bu gözəl avtomobil istehsal etdiyiniz üçün. Bu, Türkiyənin, Türkiyə sənayesinin növbəti böyük bir uğurudur".

Qeyd edək ki, 2022-ci il oktyabrın 29-da təqdimatı keçirilən Türkiyənin milli istehsalı olan "TOGG"un ilk sifarişçilərindən biri də Azərbaycan Prezidenti olub. Ötən il noyabrın 2-də İlham Əliyev Rəcəb Tayyib Ərdoğanla telefon söhbəti zamanı "TOGG"un kütləvi istehsala başlanılması münasibətilə təbriklərini çatdırmış və bunu Türkiyə sənayesinin yeni uğuru kimi dəyərləndirmişdi. Türkiyə Prezidenti mətbuata açıqlamasında həmin telefon danışığı zamanı İlham Əliyevin iki ədəd "TOGG" elektromobili almaq üçün sifariş verdiyini bildirmişdi.

İlk avtomobil isə aprelin 3-də Türkiyə Prezidentinə və xanımı Əminə Ərdoğana təqdim olunub.

*mövzunun davamı səh. 8-də*

## Fikrət Əmirovun möhtəşəm musiqiləri Daşkənddə səslənib

### Özbəkistan sənətçilərinin ifasında "Sevgimizin səması" adlı konsert

Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin dəstəyi ilə Daşkənddəki Dövlət Konservatoriyasının böyük zalında dahi Azərbaycan bəstəkarı Fikrət Əmirova həsr olunmuş "Sevgimizin səması" adlı simfonik konsert keçirilib.

Əvvəlcə konsertin rejissoru Özbəkistanın Əməkdar incəsənət xadimi Andrey Slonim Fikrət Əmirovun yaradıcılığından danışıb, onun irsinin musiqi sənəti üçün milli sərvət olduğunu qeyd edib. Rejissor Fikrət Əmirovun simfonik muğam janrının əsasını qoyduğunu, bütün dünyada şöhrət qazanmış əsərləri yaratdığını vurğulayaraq, Azərbaycan Mədəniyyət Mərkəzinə konsertin keçirilməsində göstərilən dəstəyə görə minnətdarlığını bildirib.

Proqram Fikrət Əmirovun "Şur" simfonik muğamı ilə başlayıb. Konsertdə beynəlxalq müsabiqələr laureatı Bobomurod Xudoykulovun rəhbərliyi ilə Özbəkistan Dövlət Konservatoriyası nəzdindəki teatr-studiyasının simfonik orkestrinin ifasında Fikrət Əmirova şöhrət gətirən əsərlər ifa olunub.

Gecənin əsas kompozisiyası bəstəkarın "Fortepiano və orkestr üçün ərəb mövzuları əsasında konsert"i olub. Solo hissəni Özbəkistanın Əməkdar artisti Adiba Şaripova ifa edib. Onun zəngin ifaçılıq palitrası orkestrlə birlikdə Şərqin böyük mədəniyyətinin rəngarəngliyini əks etdirən Fikrət Əmirov musiqisinin möhtəşəmliyini nümayiş etdirib.



Qeyd edək ki, tamaşaçılara səsləndirilən hər bir musiqi əsərinə uyğun səhnələrdən ibarət videoçarxlar təqdim olunub.

Özbəkistan-Azərbaycan Dostluq Cəmiyyətinin üzvləri, mədəniyyət və incəsənət xadimləri, Daşkənddəki ali məktəblərin müəllim və tələbə heyətinin maraqla izlədiyi konsert alqışlarla qarşılanıb.

## "İpək Yolu – müxtəliflik, dialoq və sülh"

### UNESCO-nun "İpək Yolu" proqramının 35 illiyi qeyd ediləcək

Aprelin 6-da Parisdə, UNESCO-nun qərargahında təşkilatın "İpək Yolu" proqramının 35 illiyi qeyd ediləcək. Tədbir Azərbaycan, Çin, Qazaxıstan, Monqolustan və Omanın UNESCO yanında daimi nümayəndəlikləri tərəfindən birgə təşkil olunacaq.

Tədbir "İpək Yolu – müxtəliflik, dialoq və sülh" adlı beynəlxalq forumla başlayacaq. Forumda beş təşkilatçı ölkənin nümayəndələri, beynəlxalq ekspertlər iştirak edəcəklər. Forumun məqsədi UNESCO-nun "İpək Yolu" proqramının mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsi və sülh mədəniyyətinin qurulması sahəsində qazandığı nailiyyətləri müəyyən edərək qiymətləndirməkdir. Həmçinin indiki qlobal kontekstdə mədəniyyətlərarası dialoq və mədəni müxtəliflik üzrə bacarıqların möhkəmləndirilməsi üçün proqramın istiqamət və məqsədləri nəzərdən keçiriləcək.

Tədbir çərçivəsində "Gənclərin İpək Yoluna baxışı" fotomüsabiqəsinin rəsmi təqdimatı da keçiriləcək. UNESCO-nun qərargahı qarşısında açılacaq sərgidə müsabiqədə seçilmiş 140 foto yer alacaq. "İpək Yolu" boyunca bilik və bacarıqların mübadiləsinə həsr olunmuş qısametrajlı film nümayiş olunacaq.

Tədbir "İpək Yolunda gənclərin tədqiqat təqaüdü" mövzusunda elmi simpoziumla davam edəcək. Simpozium gənc tədqiqatçıları və UNESCO-nun "İpək Yolu" gənclər tədqiqat təqaüdünün birinci nəşrinin benefisiarlarını bir araya gətirəcək.

Tədbir proqramı sənədli film nümayişi və Azərbaycan, Qazaxıstan və Çin incəsənət nümayəndələrinin iştirak edəcəyi konsertlə başa çatacaq.

Qeyd edək ki, UNESCO-nun "İpək Yolu" proqramı 1988-ci ildə "İpək Yolunun inteqral tədqiqatı, dialoq yolları (1988-1997)" adlı elmi ekspedisiya, sahə araşdırmaları, konfranslar vasitəsilə Şərq və Qərb xalqları arasında mədəni qarşılıqlı əlaqələri işıqlandıran təşəbbüslə başlayıb. 2012-ci ildə ikinci mərhələyə start verildikdən sonra proqram biliklərin inkişafı, səfərbərliyi və yayılması, tərəfdaşlıq və şəbəkənin qurulması, gənclərin səlahiyyətlərinin artırılması kimi üç əsas sahəyə diqqət yetirib.

## Uşaq İncəsənət Festivalının 27 minə yaxın iştirakçısı var

Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi və Heydər Əliyev Mərkəzinin keçirdiyi Uşaq İncəsənət Festivalına qeydiyyat başa çatıb.

Üç mərhələdə nəzərdə tutulan festivalın I mərhələsi 2023-cü ilin aprel-iyun aylarında keçiriləcək. Bu mərhələdə qalib olmuş iştirakçılar festivalın II mərhələsində iştirak etmək hüququ qazanırlar.

Festivalın II mərhələsi iyun-avqust ayında reallaşacaq. Bu mərhələnin qalibləri isə final mərhələsində iştirak hüququ əldə edəcəklər.

*səh. 3*

## "Ümid günəşi" – Aprel döyüşlərinin ildönümünə həsr olunmuş ədəbi-bədii gecə



Aprelin 4-də Heydər Əliyev Sarayında Mədəniyyət Nazirliyi, Azərbaycan Gənclər Fondu və Mənəvi Dəyərlərin Təbliği Fondunun dəstəyi, Azərbaycan Televiziyasının media tərəfdaşlığı, "Böyük Qayıdış" Gənclər Təşkilatı və "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin birgə təşkilatçılığı ilə Aprel döyüşlərinin (2016) ildönümünə həsr olunmuş "Ümid günəşi" adlı ədəbi-bədii gecə keçirilib.

Ədəbi-bədii gecədə çıxış edən Aprel döyüşləri şəhidi, "Murov qartalı" ləqəbli polkovnik-leytenant Raquf Orucovun həyat yoldaşı, "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Sevinc Alıyeva 2016-cı ilin aprelində Azərbaycan Ordusunun başlatdığı dördgünlük yolun 2020-ci ildə 44 günlük Vətən müharibəsinə qədər uzandığını və Şuşada böyük Zəfərlə bitdiyini deyib: "Aprel döyüşləri qəhrəmanlarının açdığı cığır ilə irəliləyən oğullarımız onların missiyasını uğurla tamamlayaraq şanlı Qələbə qazandılar. Ərazi bütövlüyümüzü bərpa edərək şəhid ailələrinin yaralarına məlhəm oldular...".

İki övladını Vətənə fəda etmiş Ziba Əsgərova övladları ilə bağlı xatirələri bölüşüb: "Aprel döyüşləri başlayanda övladlarım – Nurlan Əsgərli və İntiqam Əsgərli Xüsusi Təyinatlı Qüvvələrin mənsubu kimi xidmət edirdilər. Hər ikisi Aprel döyüşlərində iştirak etdilər. Nurlan Aprel döyüşlərində şəhid oldu. Son nəfəsini qardaşının qollarında verəndə gülümsəyərək "Qardaş, kaş Şuşaya bayrağımız sancılandan sonra şəhid olaydım" deyib. O gündən İntiqam özünə qisas andı içmişdi. Ali Baş Komandanın əmrini gözləyirdi ki, həm Nurlanın, digər şəhid dostlarının, həm də amansızlıqla qətlə yetirilən qadınların, uşaqların, qocaların qisasını alsın. Vətən müharibəsi başlayanda məndən halallıq istədi... Noyabrın 9-da Şuşada şəhid oldu. O həm Nurlanın qisasını aldı, həm də onun arzusunu yerinə yetirərək Şuşanı azad edənlər arasında oldu...".

Tədbir bədii hissə ilə davam edib. Tanınmış sənətçilər və istedadlı gənclərin ifasında musiqi nömrələri səsləndirilib, "Ümid günəşi" bədii kompozisiyası nümayiş olunub. Şəhid övladları "Qəhrəman övladıyıq" mahnısını ifa ediblər.

## Azərbaycan Luvrdakı "Art Shopping" müasir incəsənət festivalında təmsil olunub



Parisdəki Luvr Muzeyinin "Karusel" qalereyasında ənənəvi "Art Shopping" incəsənət festivalı təşkil edilib.

Festivalda ölkəmiz Heydər Əliyev Fondunun təşkilatçılığı və Azərbaycanın Fransadakı Səfirliyinin dəstəyi ilə yaradılan pavilyonla təmsil olunub. Azərbaycan incəsənət nümayəndələrinin əsərləri fransız, eləcə də müxtəlif ölkələrdən sənətsevərlərin diqqət mərkəzində olub.

*səh. 8*

## Dünyanın səyahət yolları yenə Bakıda kəsişir

Aprelin 4-də Bakı Ekspo Mərkəzində 19-cu Azərbaycan Beynəlxalq "Turizm və Səyahətlər" ("AITF – 2023") sərgisi qapılarını ziyarətçilərin üzünə açıb. Pandemiya ilə bağlı üç il (2020-2022) fasilədən sonra keçirilən sərginin təşkilatçısı "Caspian Event Organisers" şirkətidir. Sərginin ənənəvi iştirakçısı olan Bolqarıstan "AITF – 2023"ün baş sponsoru qismində çıxış edir, Özbəkistan isə tərəfdaş ölkədir.

"Caspian Event Organisers"in baş direktoru Fərid Məmmədov "AITF – 2023" sərgisində yenidən bir araya gəlməkdən məmnunluğunu bildirib. O deyib: "Ənənəvi sərgi Bakıda 19-cu dəfə keçirilir. Builki sərgidə 15 ölkəni təmsil edən 50-dən çox şirkət, qurum öz məhsul və xidmətlərini ziyarətçilərə təqdim edəcək. Bundan əlavə, sərgi Azərbaycanın cəlbedici səyahət məkanı kimi əhəmiyyətini vurğulamış olur və xalqımızın qonaqpərvərliyini xarici iştirakçılar və ziyarətçilərə nümayiş etdirir".



Diqqətə çatdırılıb ki, "AITF – 2023" sərgisinə Azərbaycanla yanaşı, Belarus, Bolqarıstan, Çexiya, Gürcüstan, İsveçrə, Kuba, Polşa, Özbəkistan, Rusiya, Sloveniya, Tunis və başqa ölkələrdən şirkətlər qatılıb. Belarus, Çexiya, Polşa və Özbəkistan öz milli stendləri ilə iştirak edirlər.

*davamı səh. 2-də*

### Bakı Uşaq və Gənclər Teatrının tamaşası Mingəçevirdə



*səh. 4*

### Aprel döyüşləri – tariximizin şanlı səhifəsi

Bölgələrdə "dördgünlük müharibə"nin 7-ci ildönümü ilə bağlı tədbirlər keçirilib

*səh. 4*

### Əhməd Bakıxanovun xatirə gecəsi



*səh. 5*

# Prezident "Baykar"ın texniki direktoru Selçuk Bayraktarı qəbul edib

## "Baykar" məhsullarının Vətən müharibəsində rolu bir daha vurğulanıb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktarı qəbul edib.

Selçuk Bayraktar Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırıb və Türkiyədə baş verən zəlzələnin fəsadlarının aradan qaldırılmasında göstərilən qardaşlıq yardımına görə Rəcəb Tayyib Ərdoğanın Azərbaycan rəhbərinə minnətdarlığını bir daha ifadə edib.

Dövlətimizin başçısı salamlara görə təşəkkürünü bildirib, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş edib.

Prezident İlham Əliyev zəlzələ zamanı həlak olanlara bir daha Allahdan rəhmət diləyərək, Azərbaycanın Türkiyəyə yardımını qardaşlıq borcu kimi dəyərləndirib.

İlham Əliyev bu yaxınlarda Ankarada Rəcəb Tayyib Ərdoğanla görüşünü və onun Azərbaycana səfərlərini məmnunluqla xatırlayaraq, Türkiyə Prezidentinin işğaldan azad edilmiş ərazilərimizə səfərlərinin xüsusi əhəmiyyət daşıdığını qeyd edib.

Prezident Türkiyənin müdafiə sənayesinin son illərdə çox böyük nailiyyətlər əldə etdiyini deyərək, bu xüsusda "Baykar" şirkətinin fəaliyyətinin aparıcı rol oynadığını vurğulayıb. Dövlət başçısı "Baykar"ın istehsal etdiyi məhsulların Vətən müharibəsi dövründə erməni işğalçılarının hərbi texnikasının məhv edilməsində rolunu bir daha qeyd edib.

Söhbət zamanı Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin, bütün digər sahələrdə olduğu kimi, hərbi və müdafiə sənayesi sahələrində də uğurla inkişaf etdiyi vurğulanıb, əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Sonda dövlət başçısına xatirə hədiyyəsi təqdim olunub.

# Ermənistan işğal zamanı ərazilərimizdə 1 milyondan çox mina basdırıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 4 aprel – Beynəlxalq Mina Xəbərdarlığı və Mina Fəaliyyətinə Yardım Günü münasibətilə sosial şəbəkələrdəki hesablarında paylaşım edib.




Paylaşımda deyilir: "4 aprel Beynəlxalq Mina Xəbərdarlığı və Mina Fəaliyyətinə Yardım Günüdür. Ermənistan Azərbaycanın işğal edilmiş ərazilərində 30 il ərzində 1 milyondan çox mina basdırmışdır. Azərbaycan dünyada mina ilə ən çox çirkləndirilmiş ölkələr arasındadır. 1990-cı illərin əvvəlindən 3300-dən çox vətəndaşımız mina qurbanı olmuşdur. Vətən müharibəsinin başa çatdığı 2020-ci il noyabrın 10-dan etibarən Ermənistanın mina terroru nəticəsində 300-ə qədər Azərbaycan vətəndaşı həlak olmuş və ya ağır yaralanmışdır".

Paylaşımda vurğulanır ki, Azərbaycan humanitar minatəmizləməni milli Dayanıqlı İnkişaf Məqsədi kimi elan edəcək: "Ölkəmiz humanitar minatəmizləmənin BMT-nin 18-ci Dayanıqlı İnkişaf Məqsədi olması təşəbbüsünü fəal şəkildə təşviq edir. Azərbaycan həm də Minaların Təsirinə Məruz Qalmış Ölkələrin Həmfikirlər Qrupunun yaradılması təklifi ilə çıxış etmişdir.

Hazırda azad edilmiş ərazilərimizdə genişmiqyaslı quruculuq işləri aparılır. Müasir texnologiyalara əsaslanan humanitar minatəmizləmə və mina sahəsində maarifləndirmə bu işlərin tərkib hissəsidir. Mən öz həyatını təhlükə altına ataraq gecə-gündüz çalışan minatəmizləyənlərimizin fəaliyyətini yüksək qiymətləndirirəm. Dünyada mina terroruna son qoymaq üçün beynəlxalq səylər artırılmalıdır".

# Ceyhun Bayramov: "Erməni sakinlərin reinteqrasiyasında qərarlıyıq"

Azərbaycan ərazisindəki erməni sakinlərin reinteqrasiyasında qərarlıdır.




Xarici işlər naziri Ceyhun Bayramov bunu aprelin 4-də BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (QAK) Azərbaycana yeni təyin olunmuş nümayəndəsi Bik Lum ilə görüşündə deyib.

Nazir işğaldan azad edilmiş ərazilərdə münaqişədən sonrakı dövrdə aparılan intensiv bərpa və yenidənqurma işlərindən bəhs edərək bu işlər çərçivəsində artıq məcburi köçkünlərin Ağalı və Talış kəndlərinə qayıtmağa başladığını deyib.

Bununla yanaşı, Azərbaycanın sülh təşəbbüslərinə baxmayaraq Ermənistan tərəfindən törədilən hərbi-siyasi təxribatlar diqqətə çatdırılıb. İşğal dövründə beynəlxalq təşkilatların missiyalarına imkan yaratmayan Ermənistan tərəfinin son zamanlar beynəlxalq təşkilatlardan öz məkrli niyyətləri üçün istifadə cəhdlərinin qəbuledilməz olduğu vurğulanıb.

# İlk dəfə Xəzərdə, Azərbaycanla birgə...

## BP "Azəri-Mərkəzi-Şərqi" platformasında bütün əməliyyatları məsafədən idarə edəcək

Prezident İlham Əliyev aprelin 4-də Bayıl tikinti-quraşdırma sahəsində "Azəri-Mərkəzi-Şərqi" platformasının üst modullarının dənizə rəmzi yola salınması mərasimində iştirak edib.



BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz və "Azəri-Mərkəzi-Şərqi" layihəsinin baş direktoru Nil Filips dövlət başçısına layihə üzrə görülən işlər barədə məlumat veriblər.

Bildirilib ki, "Azəri-Mərkəzi-Şərqi" layihəsi üzrə yekun investisiya qərarı 2017-ci ildə "Azəri-Çıraq-Günəşli" (AÇG) üzrə Hasilatın Pay Bölgüsü Sazişinin (HPBS) 2049-cu ilə qədər uzadılmasından sonra AÇG tərəfdaşlarının ilk böyük investisiya qərarıdır. Dəyəri 6 milyard dollar olan layihəyə yeni dəniz platforması və gündəlik 100 min barelədək hasilat gücündə digər qurğular daxildir. Layihənin istismar müddəti ərzində ümumilikdə 300 milyon barelədək neftin hasil olunacağı proqnozlaşdırılır.

Bu layihə çərçivəsində dənizdə suyun dərinliyinin təxminən 140 metr olan sahəsində – "Mərkəzi Azəri" və "Şərqi Azəri" platformalarının arasında 48 şaxtadan ibarət yeni hasilat, qazma və yaşayış platforması quraşdırılacaq. Layihəyə yataqdaxili yeni sualtı boru kəmərləri də daxildir. Bu xətlər platformadan hasil ediləcək neft və qazın Səngəçal terminalına ötürülməsi üçün mövcud AÇG (Azəri-Çıraq-Günəşli) "Faza 2" sualtı ixrac kəmərlərinə qoşulacaq.

Məlumat verilib ki, "Azəri-Mərkəzi-Şərqi" platformasının üst modullarına neft və qaz emalı qurğuları, inteqrasiya edilmiş qazma qurğusu, qaz kompressoru və yaşayış blokları daxildir. Modulların layihələndirilmiş çəkisi 19 min 600 tondur.

Üst modullar Bayılda yerləşən tikinti-quraşdırma sahəsində "Azfen" şirkəti tərəfindən yerli infrastruktur və resurslardan istifadə olunmaqla inşa edilib. Hazırda tikinti işlərinin və istismar sınaqlarının son mərhələsi həyata keçirilir və bu sınaqların artıq 95 faizi tamamlanıb.

Üst modulların tikinti işlərinin kulminasiya nöqtəsi Xəzərdə BP-nin ilk dəfə icra etdiyi "qaldırma və sürüşdürmə" əməliyyatı olub. Bu əməliyyat zamanı iki nəhəng qazma modulu təhlükəsiz və səmərəli şəkildə lazımi yüksəkliyə qaldırılaraq relslərlə sürüşdürmə üsulu ilə "Azəri-Mərkəzi-Şərqi" platformasının üst tikililər blokunun üzərinə yerləşdirilib.

Sonra görülən işlərlə bağlı videoçarx nümayiş olunub.

Qeyd edilib ki, yeni "Azəri-Mərkəzi-Şərqi" platforması Səngəçal terminalından, yəni, uzaq məsafədən idarə ediləcək. İdarəetmə mexanizminə avtomatlaşdırılmış innovativ sistem daxil edilib. BP şirkətinin dünyada ilk dəfə olaraq tətbiq etdiyi uzaq məsafədən idarə prinsipi çərçivəsində əsas idarəetmə otağı dəniz platformasından, ümumiyyətlə, qaz quyularının istismarı, alınmış xam neft və qazın ilkin ayrılması və nəqli prosesləri daxil olmaqla, bütün əməliyyatların idarə edilməsi üçün layihələndirilib.

Prezident İlham Əliyev və BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz "Azəri-Mərkəzi-Şərqi" platformasının üst modulları qurğusunun dənizə rəmzi yola salınmasını bildirən düyməni basıblar.

Bildirilib ki, tikinti işlərinin və istismar sınaqlarının 2023-cü ilin ikinci rübündə tamamlanacağı gözlənilir. Həmin vaxt qurğu STB-1 daşıma barjına yüklənəcək, dənizə göndəriləcək və AÇG yatağı sahəsindəki dayaq blokunun üzərinə quraşdırılacaq. Tikinti işlərinin və istismar sınaqlarının dənizdə həyata keçirilən hissəsi tamamlandıqdan sonra "Azəri-Mərkəzi-Şərqi" platformasından ilk neftin 2024-cü ilin əvvəllərində əldə olunması üçün birinci quyunun qazılmasına başlanacaq.

Xatırladaq ki, "Azəri-Mərkəzi-Şərqi" platformasının dayaq bloku ötən il dekabrın 13-də Prezident İlham Əliyevin iştirakı ilə dənizə yola salınıb və suyun 137 metr dərinliyində öz daimi yerinə quraşdırılaraq üst modulları qəbul etməyə artıq hazırdır.

"Azəri-Mərkəzi-Şərqi" layihəsi üzrə tikinti işləri 2019-cu ildə başlanıb və iş həcminin 85 faizi artıq tamamlanıb.

# Aprel döyüşləri yeni zəfərlərə yol açıb

Aprelin 4-də Milli Kitabxanada 2016-cı ilin Aprel döyüşlərinin 7-ci ildönümü ilə əlaqədar tədbir və elektron məlumat bazasının təqdimatı keçirilib.



Əvvəlcə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Kitabxananın direktoru professor Kərim Tahirov dördgünlük Aprel döyüşlərindən, Ordumuzun göstərdiyi şücaətdən danışıb. Bildirilib ki, Aprel zəfərindən iki il sonra, 2018-ci ildə Naxçıvan istiqamətində Günnüt əməliyyatı ilə 11 min hektarlıq ərazi azad olunub, İrəvan-Yeğeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna nəzarət ələ keçirilib. 2020-ci ilin iyulunda isə Tovuz istiqamətində düşmən təxribatının qarşısı qətiyyətlə alınıb, düşmənə sarsıdıcı zərbələr vurulub.

Qeyd olunub ki, 2020-ci ilin sentyabr ayının 27-də başlanan 44 günlük Vətən müharibəsi işğal altında olan torpaqlarımızın azad olunması ilə nəticələnib, Azərbaycan Ordusu parlaq Zəfər qazanıb.

Sonda tədbir iştirakçıları Milli Kitabxananın əməkdaşları tərəfindən hazırlanan "Aprel döyüşləri" adlı elektron məlumat bazası və "Aprel döyüşləri və ya dördgünlük müharibə" adlı sərgi ilə tanış olublar.

# Dövlət Film Fondunda fotoqraf-rəssamın sərgisi

Azərbaycan kinosunun 125 illiyi və "Azərbaycanfilm" kinostudiyasının 100 illiyi münasibətilə Dövlət Film Fondunda Əməkdar mədəniyyət işçisi, fotoqraf-rəssam Pərviz Quliyevin fotosərgisi açılıb.

Tədbirdə Dövlət Film Fondunun direktoru, Əməkdar incəsənət xadimi Cəmil Quliyev, Əməkdar artist, kinorejissor Elxan Qasımov çıxış edərək Azərbaycan kinematoqrafiyasının keçdiyi zəngin yaradıcılıq yolunda Pərviz Quliyevin xidmətlərindən danışıblar.

Sonra tədbir iştirakçıları XX əsrdə lentə alınmış Azərbaycan filmlərinin kadrarxası fotolarından ibarət sərgiyə baxıblar.

# Dünyanın səyahət yolları yenə Bakıda kəsişir

## AITF sərgisi on doqquzuncu dəfə qapılarını açıb...

əvvəli səh. 1-də

Dövlət Turizm Agentliyinin (DTA) sədri Fuad Nağıyev beynəlxalq sərginin təşkilinin təqdirəlayiq olduğunu vurğulayaraq son illərdə ölkəmizdə turizm sahəsinin inkişaf etdirilməsi istiqamətində geniş işlərin görüldüyünü və bu sahəyə diqqətin ayrıldığını bildirib: "AITF – 2023" sərgisi pandemiya ilə bağlı yaranmış üçillik fasilədən sonra yenidən turizm sektorunu diqqət mərkəzinə gətirir. Xarici və daxili turizmin inkişafı bizim üçün eyni dərəcədə əhəmiyyətlidir. Bu səbəbdən də istər xarici turistlərin ölkəmizə cəlb edilməsi, istərsə də daxili turizm xidmətlərinin təkmilləşdirilməsi istiqamətində aktiv və səmərəli fəaliyyəti dəstəkləyirik. Hazırda əsas məqsədimiz pandemiyadan əvvəlki rəqəmləri ən qısa zamanda bərpa edərək əvvəlkindən də çevik inkişafa və artıma nail olmaqdır. Ötən il 1,6 milyon xarici ölkə vətəndaşını ziyarətçi kimi qəbul etmişik. Bu, pandemiyadan əvvəlki rəqəmlərin 50 faizinə bərabərdir".

DTA sədri qeyd edib ki, yaxın 3 il üçün hədəfimiz 2026-cı ildə Azərbaycana səfər edən xarici vətəndaşların sayını 4 milyon nəfərə, ölkədaxili turizm səfərlərinin sayını isə 6 milyon nəfərə çatdırmaqdır. İşğaldan azad olunmuş torpaqlarımızda da turizmi inkişaf etdirmək prioritet hədəflərdəndir. Fəal istirahətin ən geniş yayılmış və kütləvi növü olan turizmə aid tədbirlər nəinki bu sənayenin nümayəndələrini, həm də yerli və xarici səyahətçiləri cəlb edir. Hər il minlərlə insan səyahət həvəskarları sırasına qoşulur və beləliklə, turizm daha geniş vüsət alır. "AITF – 2023" sərgisi səyahət etməyi sevən Azərbaycan səyahətçiləri üçün də yeni turistik məkanları kəşf etmək baxımından olduqca əhəmiyyətli platformadır.







Kiçik və Orta Biznesin İnkişafı Agentliyi İdarə Heyətinin sədri Orxan Məmmədov sərginin əhəmiyyətini vurğulayıb. Bildirib ki, iqtisadiyyatın bütün sektorlarında rəqabət qaydaları əvvəlki dövrlərə nisbətən fərqlənir. Pandemiyadan sonra ölkələr turist axını cəlb edilməsi uğrunda ciddi mübarizə aparır. Bu baxımdan ölkəmizdə turizm sektoruna mühüm diqqət ayrılır.

Özbəkistanın Azərbaycandakı səfiri Bahrom Aşrafxanov ölkəsinin bu sərgidə ilk dəfə tərəfdaş ölkə kimi iştirak etdiyini bildirib: "Qardaş Azərbaycan və Özbəkistan xalqlarını türk xalqlarının etnosuna əsaslanan ortaq milli adət-ənənələr, din və mədəniyyət birləşdirir. Azərbaycan ilə Özbəkistan arasında ikitərəfli dostluq əlaqələrinin böyük tarixi və dərin kökləri var. Həmçinin iki ölkə arasında olan ticarət dövriyyəsini və turizm sahəsində olan əməkdaşlığı da xüsusi qeyd etmək olar. 2022-ci ildə Özbəkistana səfər edən turistlərin sayına görə Azərbaycan ilk 15-liyə daxil olub. Əminəm ki, növbəti illərdə də turizm sahəsi üzrə ölkələrimiz arasında əməkdaşlıq daha da inkişaf edərək ən yüksək pillələrdə qərarlaşacaq".

Bolqarıstanın ölkəmizdəki səfiri Ruslan Stoyanov ölkələrimiz arasındakı tarixi dostluq əlaqələrindən danışıb: "Bolqarıstanın Turizm Nazirliyi Azərbaycan Dövlət Turizm Agentliyi ilə ikitərəfli əməkdaşlığın gücləndirilməsinə sadiqdir. Xalqlarımız arasında çoxillik dostluq münasibətlərini daha da dərinləşdirəcəyik. 2022-ci ildə Azərbaycandan Bolqarıstana gələn turistlərin sayı 5 min 40 nəfər olub, bu da 2021-ci il göstəriciləri ilə müqayisədə 114 faiz daha çoxdur".

Azərbaycan Turizm Agentlikləri Assosiasiyası İdarə Heyətinin sədri Göydəniz Qəhrəmanov bildirib ki, "AITF – 2023"ün yenidən açılması turizm sahəsinin inkişafı baxımından böyük və turizm sənayesinin peşəkarları üçün çoxdan gözlənilən hadisədir.

Sonra ənənəvi lent kəsilərək Azərbaycan Beynəlxalq "Turizm və Səyahətlər" ("AITF – 2023") sərgisi açıq elan edilib.

Qeyd edək ki, aprelin 6-dək davam edəcək sərgi məkanında müxtəlif görüşlər, seminarlar və təqdimatlar təşkil olunacaq.

# Bakıda UNESCO üzrə milli komissiyaların baş katibləri üçün təlim proqramı

## Afrika ölkələrindən gələn qonaqlar azad olunmuş torpaqlardakı quruculuqla da tanış olacaqlar



Aprelin 3-də ADA Universitetində UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası və ADA Universiteti İnkişaf və Diplomatiya İnstitutunun birgə təşkilatçılığı ilə təlim proqramı başlayıb. Təlim Afrikanın 10 ölkəsinin UNESCO üzrə Milli komissiyalarının baş katiblərini bir araya gətirib.

Proqramın əsas məqsədi Azərbaycanın Afrika ölkələri ilə UNESCO çərçivəsində mövcud olan əməkdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi, sözügedən regionda ölkəmiz barədə məlumatlılığın artırılması, eləcə də işğaldan azad olunmuş torpaqlarımızda bərpa-quruculuq işləri ilə bağlı məlumatların çatdırılmasıdır.

Təlimin açılış mərasimində ADA Universitetinin prorektoru və İnkişaf və Diplomatiya İnstitutunun direktoru Fariz İsmayılzadə, gənclər və idman nazirinin müavini Fərhad Hacıyev, UNESCO üzrə Milli Komissiyanın baş katibi Seymur Fətəliyev çıxış ediblər. Həmçinin UNESCO-nun Efiopiyadakı Əlaqələndirici Ofisinin rəhbəri xanım Rita Bissonautun və ADA Universiteti İnkişaf və Diplomatiya İnstitutunun direktor müavini Aygün Hacıyevanın çıxışları dinlənilib.

Fariz İsmayılzadə təlimin Azərbaycanla Afrika ölkələrinin UNESCO üzrə Milli komissiyalarının əməkdaşlığını və ikitərəfli əlaqələrini inkişaf etdirəcəyini bildirib.

Seymur Fətəliyev ölkəmizin UNESCO üçün mühüm və etibarlı donor tərəfdaşı olduğunu və təşkilatın prinsip və dəyərlərinin təşviqində müstəsna rol oynadığını qeyd edib.

Ölkəmizin ev sahibi olduğu beynəlxalq tədbirlərdən bəhs edən Fərhad Hacıyev bu ilin iyun ayında UNESCO Qlobal İdman Konfransının keçiriləcəyini diqqətə çatdırıb.

Rita Bissonaut UNESCO ilə Afrika ölkələri arasındakı münasibətlərdən, üzv ölkələrin və qurumun Afrika qrupunun birgə müəyyənləşdirdiyi 2022-2029-cu illər üzrə yeni Əməliyyat Strategiyasından bəhs edib.

Aygün Hacıyeva İnkişaf və Diplomatiya İnstitutunun fəaliyyətindən söz açıb, ümidvar olduğunun bildirib ki, təlim iştirakçıları ölkəmizə səfər çərçivəsində Azərbaycanla bağlı biliklərini zənginləşdirməklə yanaşı, yeni peşəkar əlaqələr qurmaq fürsəti də əldə edəcəklər.

# Plener əsərlərdən ibarət sərgi açılacaq

Mədəniyyət Nazirliyi, Azərbaycan Rəssamlar İttifaqı, Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin təşkilatçılığı ilə təbiət qoynunda yaradılmış plener əsərlərdən ibarət yaradıcılıq sərgisi keçiriləcək.

Xətai Sənət Mərkəzindən bildirilib ki, "Heydər Əliyev İli" çərçivəsində reallaşan sərgidə iştirak etmək üçün 18 yaşdan yuxarı Azərbaycan və xarici ölkə vətəndaşları mayın 5-dək təqdim edəcəyi əsərin fotosu ilə bərabər ad və soyadı, əsərin adı, ölçüsü və texnikasını qeyd etməklə plener2023@gmail.com elektron ünvanına göndərməlidir.

Texnika və ölçü sərbəstdir. İştirakçı ən çox 3 əsəri ilə qatıla bilər, lakin sərgidə 1 və ya 2 əsər nümayiş olunacaq. Seçimlər bədii şura tərəfindən aparılacaq.

Əsərləri nümayiş olunan müəlliflər sertifikatla təltif ediləcəklər. Sərgi Xətai Sənət Mərkəzində keçiriləcək.




# Azərbaycan-İtaliya əlaqələrinin genişləndirilməsi müzakirə edilib

## Romada Azərbaycan Mədəniyyət Mərkəzinin yaradılması tərəfdaşlığa töhfədir

Bakıda Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə İtaliya Respublikası Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyi arasında siyasi məsləhətləşmələrin növbəti raundu keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, siyasi məsləhətləşmələrdə nümayəndə heyətlərinə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Xələf Xələfov, qarşı tərəfdən isə İtaliya xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Edmondo Çirielli rəhbərlik edib.

Məsləhətləşmələr zamanı iki ölkə arasında ənənəvi dostluğa və qarşılıqlı etimada əsaslanan çoxölçülü strateji tərəfdaşlıq və onun gücləndirilməsi perspektivləri, siyasi, ticarət-iqtisadi, energetika, müdafiə və təhlükəsizlik, nəqliyyat, logistika, humanitar, mədəniyyət, təhsil sahələrində əlaqələrin genişləndirilməsi imkanları müzakirə edilib.

Xələf Xələfov münasibətlərin hazırkı yüksək səviyyəsinin təmin olunmasında son illərdə yüksək səviyyəli siyasi dialoqun davam etməsinin, Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyaya, İtaliya Prezidenti Sercio Mattarellanın Azərbaycana səfərlərinin xüsusi rol oynadığını vurğulayıb. 2020-ci ildə iki ölkə arasında imzalanmış Çoxölçülü strateji tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamənin, habelə müxtəlif sahələrdə əməkdaşlığa dair imzalanmış sənədlərin, eləcə də çoxsaylı hökumət və parlament nümayəndə heyətlərinin səfərlərinin və birgə olaraq həyata keçirilmiş bir sıra strateji layihələrin əhəmiyyəti qeyd olunub. Nazir müavini Vətən müharibəsindən sonrakı dövrdə bölgəmizdə yaranmış yeni reallıqlar, davamlı sülhün və sabitliyin bərqərar olunması, işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən yenidənqurma və bərpa işləri haqqında da məlumat verib və bu layihələrdə italyan şirkətlərinin fəal iştirakının dostluğumuzun bariz nümunəsi olduğunu bildirib.

Nazir müavini Edmondo Çirielli Azərbaycanın bölgədə sülhün bərqərar edilməsi istiqamətində səylərinin təqdirəlayiq olduğunu, Cənubi Qafqazda davamlı sülhün təmin olunmasının vacibliyini qeyd edərək, bu xüsusda İtaliyanın müvafiq töhfələr verməyə hazır olduğunu bildirib.

Siyasi məsləhətləşmələrdə iki ölkə arasında humanitar sahələrdə əməkdaşlıqdan məmnunluq ifadə olunub, Heydər Əliyev Fondunun mühüm rola malik olması vurğulanıb. Bakıda İtaliya-Azərbaycan Universitetinin yaradılmasının, Romada Azərbaycan Mədəniyyət Mərkəzinin fəaliyyətə başlamasının tərəfdaşlığımızın şaxələndirilməsindəki əhəmiyyəti qeyd olunub.

Həmçinin regional və beynəlxalq gündəlikdə dayanan qarşılıqlı maraq kəsb edən digər mövzular, çoxtərəfli formatlarda əməkdaşlığın genişləndirilməsi ətrafında fikir mübadiləsi aparılıb.

# BXA-da xalq rəqslərimizlə bağlı elmi-nəzəri seminar



Bakı Xoreoqrafiya Akademiyasında (BXA) "Ermənilərin saxtalaşdırdığı Azərbaycan xalq rəqsləri" mövzusunda elmi-nəzəri seminar keçirilib. Seminarı Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) aparıcı elmi işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Rauf Bəhmənli aparıb.

Qeyd olunub ki, bu gün dünyanın bir sıra yerlərində ermənilər ifa etdikləri Azərbaycan mahnı və rəqs havalarının musiqisini erməni folkloru kimi təqdim edirlər. Sovet dönəmindən üzü bəri "Uzundərə", "Yaylığım", "Tərəkəmə", "Fincan", "Köçəri", "Cangülüm", "Ceyranım", "Mirzəyi", "İnnabı" və bir çox rəqs havalarını öz adlarına çıxaraq kitablar nəşr etdiriblər. Ölkəmizdə aparılan araşdırmalarda bu kimi musiqilərin və rəqs havalarının Azərbaycan musiqisi ladlarına xas olduğu sübuta yetirilib. Bu gün erməni toylarında və digər tədbirlərdə səsləndirilən mahnı və rəqs havalarının, demək olar ki, çox hissəsini Azərbaycan xalq musiqisinin nümunələri, qalan hissəsini isə türk, tatar musiqiləri təşkil edir.

Tədbirdə bir neçə qədim Azərbaycan xalq rəqs havasının audio və video yazısı nümayiş etdirilib, onların nota alınma tarixi haqqında məlumat verilib.

Sonda BXA tələbələrinin ifasında "Çal, oyna" və "Bayannur" (Yallı) qədim Azərbaycan xalq rəqsləri nümayiş etdirilib.

# Uşaq Kitabxanasında yazarlarla görüşlər

Respublika Uşaq Kitabxanasında 2 aprel – Beynəlxalq Uşaq Kitabı Günü münasibətilə uşaq yazıçısı, şair, tərcüməçi, publisist Sevinc Nuruqızı ilə oxucuların görüşü keçirilib.



Tədbirdə həmçinin Beynəlxalq Uşaq Kitabı Şurası (İBBY) İdarə heyətinin Yunanıstandan olan üzvü xanım Mariya Delaki də iştirak edib.

Xatırladaq ki, F.Köçərli adına Respublika Uşaq Kitabxanası 2012-ci ildən İBBY-nin üzvüdür.

Tədbiri giriş sözü ilə açan kitabxananın direktoru Şəhla Qəmbərova gənc nəslin milli-mənəvi dəyərlərə bağlı böyüməsində uşaq ədəbiyyatı sahəsində çalışan ədiblərimizin böyük rolundan, uşaqların şəxsiyyət kimi formalaşmasında mütaliənin önəmindən bəhs edib, Beynəlxalq Uşaq Kitabı Günü münasibətilə təbriklərini çatdırıb.

Sevinc Nuruqızı məktəblilərə yeni nəşr olunmuş "Duman pəriləri ŞU-ŞA" kitabının əsas qəhrəmanları haqqında məlumat verib, uşaqlar üçün yazdığı nağıl, hekayə və şeirlərindən danışıb. Məktəblilər müəllifin "Pıçıltı" kitabındakı hekayələrdən ibarət kompozisiya ilə çıxış edib, çəkdikləri rəsmlərini nümayiş etdiriblər.

Azərbaycan Dillər Universiteti Yunan kafedrasının müəllimi, İBBY İdarə heyətinin üzvü Mariya Delaki uşaqlara yunan uşaq ədəbiyyatından "Paltar sancaqları" nağılını Azərbaycan dilinə tərcümə ilə oxuyub, şagirdlərin suallarını cavablandırıb.

Sonda məktəblilərin iştirakı ilə S.Nuruqızının əsərlərinə aid "Breyn-rinq" oyunu keçirilib. Qalib komandaya müəllifin "Pıçıltı" kitabı hədiyyə edilib.

***

Respublika Uşaq Kitabxanasında 144 və 30 saylı tam orta məktəblərin şagirdlərinin uşaq yazarı Mehriban Nağıyeva ilə görüşü keçirilib.



İlk öncə məktəblilər kitabxanada təşkil olunmuş ənənəvi kitab sərgisi ilə tanış olub. Daha sonra kitabxananın oxu zalında şagirdlərin təqdimatında yazıçı M.Nağıyevanın "Lovğa tülkü" və "Paxıl toyuq" nağılları əsasında hazırlanmış kompozisiya təqdim edilib.

Müəllif yeni nəşr olunmuş "Sunayın rəng dünyası" kitabından "Zəfər nəğməsi" və "Xarıbülbül" şeirlərini səsləndirib. Nağıl kitablarını uşaqlar üçün imzalayıb.

# Uşaq İncəsənət Festivalının 27 minə yaxın iştirakçısı var

## Festivalın I mərhələsi aprel-iyun aylarını əhatə edəcək

Xəbər verdiyimiz kimi, Ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi və Heydər Əliyev Mərkəzinin keçirdiyi Uşaq İncəsənət Festivalına qeydiyyat martın 30-da başa çatıb.




Respublikamızda müstəqillik dövrünün ən irimiqyaslı incəsənət layihəsində iştirak üçün şəhər və rayonlardan ümumilikdə 26 768 nəfər qeydiyyatdan keçib. İştirakçıların qeydiyyatı 20 fevral – 30 mart tarixlərində www.uif.az internet saytı üzərindən aparılıb.

21 nominasiya üzrə nəzərdə tutulan festival həm peşəkar, həm də həvəskar kateqoriyalar üzrə üç yaş qrupunda (6-9 yaş, 10-13 yaş və 14-17 yaş) keçiriləcək.

Üç mərhələdə nəzərdə tutulan festivalın I mərhələsi 2023-cü ilin aprel-iyun aylarında keçiriləcək. Bu mərhələdə qalib olmuş iştirakçılar festivalın II mərhələsində iştirak etmək hüququ qazanırlar.

Festivalın II mərhələsi iyun-avqust aylarında reallaşacaq. Bu mərhələnin qalibləri isə final mərhələsində iştirak hüququ əldə edəcəklər.

Final mərhələsi sentyabr ayında Bakıda keçiriləcək. Final mərhələsinin keçirilmə yeri, tarixi və vaxtı barədə məlumatlar festivalın rəsmi internet portalında, eləcə də kütləvi informasiya vasitələrində elan olunacaq.

Festivalın yekununda ən çox nominasiya üzrə iştirak etmiş və fəallıq göstərmiş şəhər və ya rayon növbəti il festivala ev sahibliyi hüququ qazanacaq.

# Üçüncü "Yüksəliş"ə hazır olanlar

## 13 min 474 şəxs qeydiyyatdan keçib




Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə 2019-cu ildə təsis olunan "Yüksəliş" müsabiqəsinin üçüncü mövsümünə qeydiyyat başa çatıb. Qeydiyyat 17 fevral – 31 mart tarixlərində aparılıb və ümumilikdə 13 min 474 şəxs qeydiyyatdan keçib. Bununla da, üçüncü "Yüksəliş" müsabiqəsinə qeydiyyat üçün müraciət edənlərin sayı ötən illərlə müqayisədə daha çox olub. Qeydiyyatdan keçənlərin 10237-si kişi, 3237-si qadındır. Ötən il ikinci müsabiqəyə qeydiyyat üçün müraciət edən 6268 namizəd bu dəfə də müsabiqəyə qoşulub.

Qeydiyyat mərhələsi ərzində bölgələrdə müsabiqəyə əlçatanlığı təmin etmək, qeydiyyat mərhələsində texniki dəstək göstərmək, məlumatlandırma işi aparmaq məqsədilə "Yüksəliş" müsabiqəsinin İşçi qrupunun nümayəndələri 19 bölgəyə səfər edib. Ümumilikdə qeydiyyatdan keçənlər arasında Bakı şəhəri və Abşeron-Xızı, Lənkəran-Astara, Gəncə-Daşkəsən regionlarından namizədlər üstünlük təşkil edir. Müsabiqədə 21-51 yaşlarında olan namizədlər iştirak edə bilərlər. Müraciət edənlər arasında 21-30 yaşında 5050 nəfər, 41-50 yaşında 1625 nəfər, 21 yaşadək 33, 51 yaşında isə 10 nəfər var.

Hazırda qeydiyyatdan keçənlərin daxil etdikləri məlumatların yoxlanılması həyata keçirilir.

Qarşıda iştirakçıları ümumi biliklər üzrə onlayn mərhələnin ilk sınaq imtahanı gözləyir. İmtahanda Azərbaycan və dünya ölkələri üzrə tarix, coğrafiya, ədəbiyyat və mədəniyyət, həmçinin hüquq və iqtisadiyyat sahələri, müasir trendlər üzrə 4 blok və hər bloka aid 25 sual təqdim olunacaq.

"Yüksəliş" müsabiqəsinin 20 qalibini 1 il ərzində idarəçi rəhbərlərdən – iri şirkətlərin top-menecerlərindən və dövlət orqanlarının rəhbərlərindən fərdi karyera məsləhətləri almaq imkanı, kadr ehtiyatı bankına daxil edilmə və 20 min manat dəyərində pul mükafatı gözləyir.

Xatırladaq ki, "Yüksəliş" müsabiqəsi 5 mərhələdən – qeydiyyat, onlayn seçim, əyani, yarımfinal və finaldan ibarətdir. Üçüncü "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2022-ci il 20 dekabr tarixində sərəncam imzalanıb.

# "Filming Azerbaijan" müxtəlif ölkələrlə birgə layihələr üzərində işləyir



Mədəniyyət Nazirliyinin tabeliyində 2021-ci ildən fəaliyyət göstərən "Filming Azerbaijan" MMC (Azərbaycan Film Komissiyası) ötən müddətdə bir sıra yerli və beynəlxalq layihələrdə, həmçinin İFFTC və MİPCOM kimi beynəlxalq tədbirlərdə ölkəmizi təmsil edib. Beynəlxalq kino jurnallarında "Filming Azerbaijan" haqqında məqalələr dərc olunub.

2022-ci ildən ABŞ-də yerləşən Dünya Film Komissiyaları Assosiasiyası – AFCİ-yə üzv qəbul edilərək beynəlxalq fəaliyyət üçün sertifikat alan "Filming Azerbaijan" ABŞ, Böyük Britaniya, Almaniya, Pakistan, Hindistan, Türkiyə, İndoneziya kimi ölkələrin tanınmış film istehsalçıları ilə əməkdaşlıq edir. Şirkət birgə film, klip, reklam çarxlarının, o cümlədən "Netflix" ("Gray Man" filmi), "Disney+" ("Aar ya paar" filmi) kimi platformalar üçün filmlərin ölkəmizdə çəkilişinə təşkilati dəstək göstərib.

O cümlədən Pakistanın "Sufi" brendi üçün reklam çarxı və Hindistanın tanınmış müğənnisi Stebin Ben üçün musiqili videonun (yutub platformasında baxış sayı 33 milyondan çoxdur) Azərbaycanda çəkilişlərinə dəstək verilib. "Filming Azerbaijan" hazırda Sinqapur, BƏƏ, Hindistan və Argentina film istehsalçıları ilə bu il ərzində həyata keçirilməsi nəzərdə tutulan layihələr üzərində işlər aparır.

# Siyasətdə və dövlətçilikdə Heydər Əliyev zirvəsi

Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə bölgələrdə konfrans, sərgi, konsert və s. tədbirlər keçirilir, böyük dövlət xadiminin xalqımız qarşısında xidmətləri minnətdarlıqla xatırlanır.



Daşkəsən Dövlət Rəsm Qalereyası, rayon Heydər Əliyev Mərkəzi, Mədəniyyət Mərkəzi, Uşaq incəsənət məktəbi, rayon İcra Hakimiyyəti, Təhsil Şöbəsi, Uşaq-gənclər inkişaf mərkəzi və Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev zirvəsi" adlı rəsm sərgisi keçirilib.

Masallı Rayon İcra Hakimiyyətinin təşəbbüsü, Masallı Tarix-Diyarşünaslıq Muzeyi və rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycan" mövzusunda tədbir keçirilib.

Ucar rayon Heydər Əliyev Mərkəzi və rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı, rayon Təhsil Şöbəsinin dəstəyi ilə "Heydər Əliyev irsinin təbliği yolları" adlı layihə çərçivəsində növbəti tədbir Qarabörk kənd Folklor evində gerçəkləşib.

Abşeron rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə rayondakı N saylı hərbi hissədə "Ulu öndər Heydər Əliyev müasir Azərbaycan Ordusunun qurucusudur" mövzusunda tədbir keçirilib. Səsləndirilən musiqi nömrələri hərbçilərə xoş duyğular bəxş edib.



Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Abşeron rayonunda ağacəkmə aksiyası təşkil edilib. Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev və Sumqayıt RMİ-nin rəisi Rəşad Əliyevin də iştirak etdiyi aksiyada minə yaxın həmişəyaşıl ağac əkilib.

Biləsuvar rayon Heydər Əliyev Mərkəzində "Heydər Əliyev və azərbaycançılıq məfkurəsi" mövzusunda konfrans təşkil olunub. Çıxış edənlər Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrlərdə bütün sahələrdə tərəqqiyə xidmət edən böyük işlərə imza atmasından, habelə ölkəmizdə tolerantlıq və azərbaycançılıq ideologiyasının inkişafından danışıblar.

# Aprel döyüşləri – tariximizin şanlı səhifəsi

2016-cı ilin Aprel döyüşlərinin 7-ci ildönümü münasibətilə bölgələrdəki mədəniyyət müəssisələrində bir sıra tədbirlər keçirilib.



Aprel döyüşlərinin ildönümündə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində, Birinci Qarabağ müharibəsi şəhidi Arif Fərhadovun xatirəsinə inşa edilən bulaq kompleksinin açılışı olub. Tədbirdə Cocuq Mərcanlı sakinləri, şəhidin ailə üzvləri, ziyalılar, hərbçilər və digər qonaq iştirak ediblər. "Şəhid bulağı" YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev və Bibiheybət ərazi təşkilatının sədri Sədaqət Həsənovanın dəstəyi ilə inşa olunub.

Ağcabədi rayon Heydər Əliyev Mərkəzində "Böyük Zəfərin başlanğıcı – Aprel döyüşləri" adlı tədbir keçirilib. Çıxış edənlər 2016-cı ilin Aprel döyüşlərinin əhəmiyyətindən, Azərbaycan Ordusunun döyüş əzmindən, xalq-ordu birliyindən danışıblar.

S.Vurğun adına Sumqayıt şəhər Heydər Əliyev Kitabxanasının Uşaq şöbəsində "44 gündən dörd il əvvəlki 4 gün" adlı tədbir keçirilib. M.Füzuli adına 15 saylı tam orta məktəbin 7-ci sinif şagirdlərinin iştirakı ilə reallaşan tədbirdə Aprel döyüşləri haqqında məlumat verilib. Həmin döyüşlərdə şəhid olan polkovnik-leytenant Raquf Orucova həsr olunmuş videoçarx izlənilib. Sonda "Silahı məhəbbət, son sözü Vətən" adlı sərgiyə baxış olub.

Sabirabad rayon Heydər Əliyev Mərkəzində "Aprel döyüşləri tariximizin şanlı səhifəsidir" adlı tədbir keçirilib. Qeyd olunub ki, Aprel döyüşləri dövlətimizin və Ordumuzun gücünü, xalqımızın birliyini, həmrəyliyini nümayiş etdirib. Çıxışlardan sonra döyüşlərə həsr olunmuş sənədli film izlənilib.



Şirvan şəhər Heydər Əliyev Mərkəzinin əməkdaşları Aprel döyüşlərinin şəhid əsgəri Rahil Ərəblinin ailəsini ziyarət ediblər.

Masallı rayon Mərkəzi Kitabxanasında "Aprel döyüşləri şanlı tariximizdir" mövzusunda tədbir keçirilib. Tədbirdə Aprel döyüşlərinin tarixi və nəticələri haqqında məlumat verilib.

Masallı rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə Güllütəpə kənd tam orta məktəbində Aprel döyüşlərinin ildönümünə həsr edilmiş tədbir keçirilib. Dördgünlük müharibənin Masallıdan olan şəhidləri Nurlan Əsgərli və Firdovsi Bağırzadəyə həsr olunan sənədli film nümayiş etdirilib.

Yardımlı rayon Heydər Əliyev Mərkəzində "Tarixi Zəfərin qəhrəmanları" adlı sərgi təşkil olunub.

# Bakı Uşaq və Gənclər Teatrının tamaşası Mingəçevir səhnəsində



Bakı Uşaq və Gənclər Teatrının tariximizin qan yaddaşına, zaman-zaman azərbaycanlılara qarşı törədilmiş soyqırımlarına həsr olunmuş "Qucaqla məni" tamaşası Mingəçevir Dövlət Dram Teatrında göstərilib. Tamaşanın nümayişi Mingəçevir Şəhər İcra Hakimiyyəti, Bərdə RMİ, Yevlax Regional Təhsil İdarəsinin dəstəyi ilə təşkil olunub.

Cəfər Cabbarlının "Əhməd və Qumru" hekayəsinin motivləri əsasında dramaturq Arzu Soltanın qələmə aldığı, Əməkdar artist İntiqam Soltanın səhnələşdirdiyi, canlı musiqinin müşayiəti ilə nümayiş olunan tamaşada rolları Əfruz Əliyeva və Ədalət Ağaverdiyev ifa ediblər. Tamaşa maraqla qarşılanıb.

# Vətəndaşların müraciətləri dinlənilib

Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən, martın 31-də Azərbaycan Respublikasın mədəniyyət nazirinin birinci müavini, nazir vəzifəsini icra edən Adil Kərimli tərəfindən Biləsuvar şəhərindəki Heydər Əliyev Mərkəzində vətəndaşların qəbulu keçirilib.

Qəbuldan öncə Ümummilli lider Heydər Əliyevin Biləsuvar şəhərində ucaldılmış abidəsi önünə gül dəstələri qoyularaq xatirəsi ehtiramla yad edilib.



Sonra Heydər Əliyev Mərkəzinə baxış keçirilib, mərkəzdə yaradılan şəraitlə tanışlıq olub.

Qəbulda Biləsuvar, Salyan, Neftçala və Cəbrayıl rayonlarından ümumilikdə 48 vətəndaş iştirak edib. Vətəndaşların müraciətləri əsasən işlə təmin olunma, fəxri adın verilməsi, mədəniyyət sahəsi ilə bağlı təkliflərdən ibarət olub.

Görüşdə hər bir vətəndaşın müraciətinə həssaslıqla yanaşılması, diqqətlə araşdırılması və qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli barədə struktur rəhbərlərinə müvafiq tapşırıqlar verilib.

Qaldırılan məsələlərə vaxtında və obyektiv baxılması məqsədilə hər bir müraciət qeydiyyata alınaraq xüsusi nəzarətə götürülüb.

# Biləsuvar rayonunda mədəniyyət müəssisələrinə baxış keçirilib

Mədəniyyət nazirinin birinci müavini, nazir vəzifəsini icra edən Adil Kərimli martın 31-də Biləsuvarda vətəndaşlarla görüşdən sonra rayonda fəaliyyət göstərən bir sıra mədəniyyət və bədii təhsil ocaqlarına baş çəkib.

Adil Kərimli rayon Mədəniyyət Mərkəzi, Orxan Əkbərov adına Uşaq İncəsənət Məktəbi, Dövlət Rəsm Qalereyası, Xırmandalı kənd Uşaq İncəsənət Məktəbi, Tarix-Diyarşünaslıq Muzeyi, Dövlət Bayrağı Muzeyinin fəaliyyəti ilə tanış olub. Müəssisələrə baxış zamanı fəaliyyətin günün tələbləri səviyyəsində qurulması ilə bağlı müvafiq tapşırıq və tövsiyələr verilib.

Sonra rayonun Bəydili kəndi ərazisindəki ölkə əhəmiyyətli abidə – Yeddítəpə kurqanlarına (qəbir abidələri) da baxış keçirilib. Bildirilib ki, Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı"na uyğun olaraq, Biləsuvar rayonu ərazisindəki abidələr, o cümlədən adıçəkilən kurqanlar Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən yenidən qeydiyyata alınıb və mühafizəsi təşkil olunub.





# Tarixin qan yaddaşı: yerlərdə anım tədbirləri

1918-ci ilin mart-aprel aylarında erməni-bolşevik silahlı birləşmələrinin xalqımıza qarşı həyata keçirdiyi misli görünməmiş qırğınların 105-ci ildönümü ilə bağlı yerlərdəki mədəniyyət müəssisələrində anım tədbirləri təşkil olunub, soyqırımının ağır nəticələrindən danışılıb.

Quba rayon MKS-nin Mərkəzi Kitabxanasının oxu zalında "Tarixin qan yaddaşı: Mart soyqırımı" adlı tədbir keçirilib. İştirakçılar "31 mart Azərbaycanlıların Soyqırımı Günüdür" adlı sərgiyə baxıblar.







İsmayıllı rayon Heydər Əliyev Mərkəzində Azərbaycanlıların Soyqırımı Gününə həsr edilən anım tədbiri keçirilib. İsmayıllı Rayon İcra Hakimiyyəti, İsmayıllı RMİ, Heydər Əliyev Mərkəzi və Mədəniyyət Mərkəzinin əməkdaşlarının iştirak etdiyi tədbirdə ötən əsrin əvvəllərində erməni quldur dəstələrinin xalqımıza qarşı törətdiyi qırğınlar haqqında məlumat verilib.

Şəmkir rayon MKS-nin Oxuculara xidmət şöbəsi F.Salmanov adına şəhər tam orta məktəbinin şagirdləri ilə birlikdə "Bir əsrə sığmayan zülm" adlı tədbir təşkil edib.





Ağstafa Dövlət Rəsm Qalereyasında "Azərbaycanlıların soyqırımı tarixin sağalmaz yarasıdır", Qazax rayon Mədəniyyət Mərkəzində "Soyqırımı dəhşətlərini unutmayın!" mövzularında tədbirlər keçirilib.

Tovuz rayon Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə ermənilər tərəfindən xalqımıza qarşı iki əsrə yaxın bir dövrdə yeridilən soyqırımı siyasəti barədə məlumat verilib.

Biləsuvar şəhər Orxan Əkbərov adına Uşaq incəsənət məktəbində sərgi, Masallı rayon Heydər Əliyev Mərkəzində isə tarix dərsi keçirilib.

Ağdaş rayon Heydər Əliyev Mərkəzində Gənclərin İnkişaf və Karyera Mərkəzi Ağdaş nümayəndəliyi ilə birgə Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş tədbir təşkil olunub. Soyqırımının tarixindən və ağır nəticələrində söz açılıb, Heydər Əliyevin 1998-ci ildə imzaladığı fərmanla faciəyə siyasi-hüquqi qiymət verildiyi diqqətə çatdırılıb.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Xatirə Muzeyində Naxçıvan Dövlət Universitetinin tələbələri üçün "Heydər Əliyev irsində azərbaycanlıların soyqırımı və doğma yurdlarından deportasiya edilməsi məsələlərinə münasibət" mövzusunda açıq dərs keçirilib.

Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyində keçirilən "31 Mart – tariximizin qanlı salnaməsi" adlı tədbirdə qətliamları əks etdirən materiallar əsasında sərgi nümayiş olunub. Bu faciənin unudulmaması, gəncliyin bu istiqamətdə maarifləndirilməsi işinin zəruri olduğu diqqətə çatdırılıb.

Şəki şəhər Heydər Əliyev Mərkəzi və Şəki MKS-nin 9 nömrəli kitabxana filialının təşkilatçılığı ilə anım tədbiri keçirilib. Çıxışlarda qeyd olunub ki, ötən illər ərzində aparılmış araşdırmalar sayəsində üzə çıxmış tarixi faktlar ermənilərin həyata keçirdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş və faciə qurbanlarının sayının qat-qat çox olduğunu sübuta yetirib.

İmişli rayon MKS-nin 17 saylı Əliqulular kənd kitabxanası "31 Mart soyqırımını unutma!" başlığı altında kompozisiya təşkil edib.

Gəncə şəhər Uşaq incəsənət məktəbində Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş rəsm, Goranboy Dövlət Rəsm Qalereyasında isə foto sərgiləri təşkil edilib.

Sabirabad RMİ-nin rəisi Fərid Qurbanzadə və mədəniyyət işçiləri tərəfindən Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı Sabirabad rayonunda ucaldılan "Kədərli ana" abidə kompleksi ziyarət olunub, abidənin önünə gül dəstələri qoyulub.

Şirvan Dövlət Rəsm Qalereyası tərəfindən "Soyqırımı dəhşəti rəsmlərdə" adlı sərgi təşkil olunub.

**Hazırladı: N.Məmmədli**

# Şuşa haqqında kitab yeddi ölkədə nəşr edilib

Azərbaycanın mədəniyyət paytaxtı Şuşa haqqında kitab 7 xarici ölkədə – italyan, yunan, ərəb (İordaniyada), bolqar, latış, tacik və fransız dillərində nəşr edilib. UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının dəstəyi ilə ərsəyə gəlmiş kitabların artıq Roma, Sofiya, Əmman, Riqa və Düşənbə şəhərlərində təqdimatları keçirilib. Bu günlərdə Parisdə çapdan çıxan "Qafqazın mirvarisi – Şuşa" kitabı fransızdilli oxucular üçün qədim qala-şəhərimiz haqqında ətraflı məlumat mənbəyi olacaq.

Təqdim edilən kitablarda Qarabağ xanlığının yaradılması, Azərbaycanın mədəniyyət paytaxtı, Qarabağın tacı olan Şuşanın qədim tarixi, mədəni və strateji əhəmiyyəti tədqiq edilir. Həmçinin nəşrlərdə Şuşa şəhərinin keçdiyi bütün tarixi mərhələlər əhatə edilir, Azərbaycanın ictimai-siyasi və mədəni həyatında mühüm xidmətlər göstərən və əslən Şuşadan olan ı görkəmli şəxsiyyətlər haqqında məlumat verilir. XX əsrin sonunda Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində Şuşanın işğalı zamanı şəhərdə mədəni soyqırımı siyasəti, xüsusilə tarixi-memarlıq abidələrinin erməni vandalizminə məruz qalması fotolarla diqqətə çatdırılır. Ümumilikdə nəşrlərdə qala-şəhərin işğaldan əvvəl, işğal vaxtı və sonrakı dövrünü əks etdirən çoxsaylı fotolar izahlı şəkildə təqdim edilib.

Kitablar Yunanıstan, Bolqarıstan, İordaniya, Tacikistanda Dövlət İdarəçilik Akademiyasının Qarabağ İrsini Araşdırma Mərkəzinin rəhbəri, siyasi elmlər doktoru, professor Elçin Əhmədovun müəllifliyi, İtaliyada professor Daniel Pommier Vinçelli, Latviyada professor Kaspars Klaviņş və dosent Nigar Sultanova, Fransada Jan-Mişel Brun ilə həmmüəlliflik əsasında nəşr edilib.

# Qusar teatrında yeni səhnə nümunələri

Qusar Dövlət Ləzgi Dram Teatrında M.F.Axundzadənin "Hekayəti-Molla İbrahimxəlil kimyagər" əsəri üzərində (quruluşçu rejissor Əliyar Əliyev) məşqlər yekunlaşıb. Qusarlı teatr təmsilçiləri mövsümün sonunadək daha iki tamaşanı təhvil vermək istəyirlər.





Bunlardan biri Zəlimxan Yaqubun "Böyük ömrün dastanı" (quruluşçu rejissor Faiq Qardaşov) poeması əsasında eyniadlı tamaşadır. Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tamaşanın premyerası may ayında olacaq.

Fərqli müəlliflərin müxtəlif janrlı pyeslərinə müraciət edən yaradıcı heyətin daha bir səhnə nümunəsi dağıstanlı dramaturq İdris Şamxalovun "Pərixanum" (quruluşçu rejissor Bağır Əhmədov) əsəri əsasında hazırlanacaq.

Kollektiv Azərbaycan Teatr Xadimləri İttifaqının təşkilatçılığı ilə Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Sən elə bir zirvəsən" adlı bədii qiraət müsabiqəsində də təmsil olunacaq.

# Rəfiqə Axundova: “Heydər Əliyev bütün yüksək keyfiyyətləri ilə yanaşı, həm də əsl sənət bilicisi idi”

## İlk Prezident təqaüdçüləri

Azərbaycanın tarixində müstəsna rolu olan, onu dünyada layiqincə tanıdan və ölkəmizə rəhbərliyi zamanı bütün sahələrin inkişafına nail olan Ümummilli lideri Heydər Əliyev mədəniyyətimizin himayədarı, incəsənət vurğunu idi. Bunu bütün fəaliyyəti dövründə isbatlayan və özünün yüksək estetik zövqü ilə sənətə və sənətkarlığa daim diqqət və qayğı nümayiş etdirən Heydər Əliyev yaxşı bilirdi ki, bir xalqın dünyada təqdimatında mədəniyyət, onun ayrı-ayrı sahələrinin təmsilçilərinin peşəkarlıq və istedadı nə qədər böyük önəm kəsb edir.





Hələ ölkəmizin mədəniyyətinin də SSRİ kimi quruluşun mədəniyyəti tərkibində təmsil olunduğu bir vaxtdan o, ən müxtəlif sahələrdə çalışan və tanınan mədəniyyət və incəsənət təmsilçilərini seçir, tanıyır, sevir, diqqətdə saxlayırdı. Hər fürsətdə dövlət tərəfindən dəyərləndirilməsinə nail olurdu. Ulu öndər deyirdi: “Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir”. Bu mənada o, mədəniyyəti xalqın böyük sərvəti hesab edirdi.

Mədəniyyətimizin elə bir sahəsi yoxdur ki, Heydər Əliyev qayğısından bəhrələnməsin. Azərbaycan musiqisini, teatr sənətini, digər sənət sahələrini əhatə edən diqqətinin bariz nümunələrindən biri də bu sahələrdə uzun illər çalışan, böyük yaradıcı əmək sərf edən insanların dövlət təltiflərinə, mükafatlara layiq görülməsi idi. Belə addımlardan biri də Heydər Əliyevin 11 iyun 2002-ci il tarixdə imzaladığı fərmanla Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi oldu. Həmin fərmana uyğun olaraq Azərbaycanın elm və təhsil, mədəniyyət və incəsənət, iqtisadiyyat və dövlət idarəçiliyi sahələrində böyük xidmətləri olan şəxslərə (ümumilikdə 150 nəfər) Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdləri verildi. Onların arasında Azərbaycan mədəniyyət və incəsənətinin görkəmli simaları vardı.

İlk Prezident təqaüdçülərindən biri də ömrünü milli balet sənətimizə həsr edib, ona dünya miqyasında şöhrət qazandırmağa nail olan canlı əfsanə, görkəmli baletmeyster, Xalq artisti Rəfiqə Axundovadır.

Qocaman sənət fədaisini o illərə aparmaqla xatirələrini dinləmək istədik: “Heydər Əliyev unikal insan idi. O, güclü siyasətçi, idarəetmə sahəsində yüksək peşəkar, dünya miqyasında seçkin siyasi xadim olmaqla yanaşı, yəni bütün üstün keyfiyyətləri ilə bərabər, eyni zamanda əsl sənət bilicisi idi. Özü də bu bilgi, bu universallıq ümumi intellektual səviyyə, yəni sadəcə dünyagörüşünün zənginliyi ilə bitmirdi. O, sənətin bütün sahələrində ən xırda detallaradək yaxşı məlumata, incə zövqə və sözsüz ki, həmin sahənin mütəxəssislərinə xas olan təhlil qabiliyyətinə malik idi. Odur ki, Heydər Əliyevin tamaşaçısı olduğu tədbir və nümayişlərdə bütün heyət həyəcanlı və həm də sevincək olurdu. Çünki onun yüksək zövqünü və səhnə insanlarına sevgisini duyurdular. Onu hər kəs bir cür analiz edib, sevə bilər. Amma sənət insanları, həyatını Azərbaycan incəsənətinə həsr edən sənətkarlar bir başqa sevirlər. Xüsusən biz balet artistləri. Bilirsiniz niyə? Çünki o, elə də populyar olmayan, incəsənətin digər sahələrindən fərqli olaraq məhdud auditoriya tərəfindən sevilən opera və balet sənətinə, xüsusən də balet artistlərinə, onun azərbaycanlı nümayəndələrinə xüsusi diqqət və qayğı ilə yanaşırdı. İstəyirdi ki, bu sahəyə maraqlı insanlarla yanaşı, onun təmsilçilərinin də sayı artsın. O, bizlərin qastrollarını, balet tamaşalarını diqqət mərkəzində saxlayırdı. Başqa ölkələr kimi bizim milli balet sənətimizin də dünya səhnələrini fəth edib şöhrətlənməsini istəyirdi.

İndi o günləri xatırlayanda istər-istəməz kövrəlirəm. O, unikal insan, sadə və mehriban rəhbər, qayğıkeş dövlət başçısı idi”.

Xatırladaq ki, Rəfiqə Axundova Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti, baş baletmeysteri olub. Sənətkar teatrın solisti kimi dünya və Azərbaycan balet sənətinin bir çox nümunələrində mürəkkəb partiyaları uğurla ifa edərək geniş tamaşaçı rəğbəti qazanıb.

O, yaradıcılıq fəaliyyəti boyunca, həmçinin Misir, Yəmən, Əlcəzair, Türkiyə və İsveçdə çalışıb, ölkəmizi dünyaya tanıdıb, milli xoreoqrafiya sənətini layiqincə təbliğ edib. Rəfiqə Axundovanın həyat yoldaşı, Xalq artisti Maqsud Məmmədovla birgə quruluş verdiyi dahi Azərbaycan bəstəkarı Qara Qarayevin “Yeddi gözəl” və “İldırımlı yollarla” baletləri ən nüfuzlu teatr səhnələrini bəzəyən gözəl sənət əsərlərinə çevrilib.

**H.Rüstəmova**

# Tarixi müsibətin film yaddaşından görünən təsviri

Azərbaycan kinosunun 125 illiyi və “Azərbaycanfilm” kinostudiyasının 100 illiyi münasibətilə Dövlət Film Fondunda “Azərbaycan sənədli kino salnaməsi” adlı silsilə retrospektiv baxış tədbirləri davam edir.

Bu çərçivədə martın 31-də keçirilən növbəti tədbir Azərbaycanlıların Soyqırımı Gününə həsr edilmişdi. Retrospektiv baxış üçün isə Əməkdar incəsənət xadimi, kinooperator, rejissor Ələkbər Muradovun “Yaddaşın rəmzi” sənədli filmi seçilmişdi.

Fondun direktoru Əməkdar incəsənət xadimi Cəmil Quliyev ermənilərin xalqımızın başına gətirdiyi faciələrdən bəhs etdi, bu faktların bədii və sənədli kinoda zaman-zaman özünün ifadə formasını tapdığını dedi. Sonra o, Azərbaycan kino sənətində məxsusi yeri olan rejissor, kinooperator, ssenarist, rəssam Ələkbər Muradovun (1948-2013) yaradıcılıq yoluna nəzər saldı.

Bildirildi ki, yaradıcılığa hələ tələbə ikən – Azərbaycan Neft-Kimya İnstitutunda (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) ali təhsil aldığı dövrdə başlayan həvəskar operator ali məktəbin nəzdində fəaliyyət göstərən “Azneftximfilm” studiyasında özünün ilk ekran təcrübələrini edib. Onun filmoqrafiyasına müxtəlif janrlı 30-dan artıq ekran əsəri daxildir. “Qərib cinlər diyarında”, “Mən nəğmə qoşuram”, “Qorxma, mən səninləyəm!” bədii filmlərində II operator kimi işləyib, “Zirzəmi”, “O dünyadan salam”, “Mənim ağ şəhərim” bədii filmlərinin quruluşçu operatorudur. “Anaya məktub”, “Gəmiqaya”, “Səadət təranələri”, “Odlu ürək”, “Nəsrəddin Tusi”, “Təkəlduz”, “Qonaq-qaralı ev” sənədli filmləri də kinooperatorun yaradıcılıq nümunələridir.



Kinoşünas, Əməkdar incəsənət xadimi Aydın Kazımzadə onun cəsarətli operator, maraqlı rejissor, fərqli düşüncə tərzinə malik insan olmasından danışdı. Bildirdi ki, Ə.Muradov hər zaman gündəmdə olan mövzulara müraciət edib, dövrünün aktual problemlərini, hadisələri lentlərə köçürməyi özünə vəzifə borcu sayıb. Sənətkar özünü rejissor kimi tammetrajlı bədii filmdə də sınayıb və “Güllələnmə təxirə salınır” kimi maraqlı, cəsarətli psixoloji dram ərsəyə gətirib.

Çıxışların ardınca “Yaddaş” sənədli filmlər studiyasında istehsal edilmiş “Yaddaşın rəmzi. Quba-1918” filmi nümayiş olundu. Arxiv sənədlərinə əsaslanan film 1918-ci ildə ermənilərin azərbaycanlılara qarşı törətdikləri vəhşilikləri əks etdirir. 30 dəqiqəlik sənədli filmdə soyqırımının tarixi kökləri də təhlil edilir.

**Həmidə**

# Ustad tarzən Əhməd Bakıxanovun xatirəsi anılıb

Beynəlxalq Muğam Mərkəzində (BMM) Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndəsi, ustad tarzən, Xalq artisti Əhməd Bakıxanovun (1892-1973) xatirəsinə həsr olunmuş tədbir təşkil edilib.



Əvvəlcə qonaqlar Əhməd Bakıxanovun həyat və yaradıcılıq yolunu əks etdirən fotosərgi ilə tanış olublar.

Tədbirin aparıcısı Əməkdar incəsənət xadimi Hafiz Quliyev görkəmli tarzənin Azərbaycan xalq musiqisinin inkişafındakı rolundan danışıb. Qeyd olunub ki, Əhməd Bakıxanov ömrünü muğama, onun tədrisinə, ifaçılıq sənətimizə həsr edib. Sənətkarın Azərbaycan Radiosu nəzdində yaratdığı Xalq çalğı alətləri ansamblı Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski, Hüseynqulu Sarabski, Zülfü Adıgözəlov kimi görkəmli xanəndələri müşayiət edib, konsert proqramları ilə insanların zövqünü oxşayıb. Azərbaycan xalq musiqisinin təbliğində onun böyük xidməti var. Ə.Bakıxanovun yaratdığı musiqi rəngləri tar ifaçılığında geniş yayılıb. Musiqi məktəbləri üçün tərtib etdiyi muğam proqramı tar tədrisində bu gün də istifadə olunur.

Tədbir BMM-in solistlərinin ifasında konsert proqramı ilə davam edib.

# Komediya tamaşalarına “Salam”

Son illər türkdilli ölkələri əhatə edən teatr festivalları, konfrans və digər tədbirlərin sayı, bu layihələrə maraq da artmaqdadır. Bu günlərdə onların sırasına daha bir layihə qoşulub.

27-31 mart tarixlərində Qazaxıstanın Kokşetau şəhərində “Salam” Beynəlxalq Komediya Tamaşaları Festivalı keçirilib.

Səhnə sənəti ilə məşğul olan insanları bir araya gətirmək, ictimaiyyətin diqqətini müasir komediya janrına yönəltmək, yeni teatr prosesinə təkan vermək və yaradıcılıq əlaqələrinə nail olmaq məqsədilə keçirilən ilk festivalda Qazaxıstan, Qırğızıstan və Özbəkistandan ümumilikdə 9 dövlət teatrı təmsil olunub.




Festivalın münsiflər heyətində Azərbaycanın TÜRKSOY-dakı nümayəndəsi Elçin Qafarlı və Avrasiya Teatrlar Assosiasiyasının Azərbaycan təmsilçisi, Gəncə Dövlət Dram Teatrının aktyoru Yusif Cəfərov da yer alıb.

Festivalda ən yaxşı komediya, ən yaxşı rejissor işi, ən yaxşı aktyor və aktrisa, ən yaxşı tamaşa musiqiləri və tərtibatı kimi ümumilikdə 9 nominasiya üzrə qaliblərə pul mükafatları və diplomlar verilib. Sənət yarışının qalibi isə Astanadakı A.Mambetov adına Dövlət Dram və Komediya Teatrının “Çarli Çaplin” tragikomediyası olub.

Festival barədə təəssüratlarını bölüşən Yusif Cəfərov bildirib ki, bu kimi tədbirlər teatr mübadiləsi baxımından böyük əhəmiyyət kəsb edir. Festivalın sırf komediya janrlı tamaşalar üzərində qurulması janra marağı da artırır. Onun fikrincə bu kimi festivallar sənət və təcrübə mübadiləsi ilə yanaşı yeni teatr meyllərinin, aktyor oyunu, rejissor işi, səhnə tərtibatı, musiqi həlli kimi vacib kollektiv işlərin yeni forma və üslublarını mənimsəmə baxımından da yaxşı fürsətdir.

Qeyd edək ki, ikinci “Salam” festivalı gələn ilin may ayına planlaşdırılır.

“Heydər Əliyev İli”

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları “Heydər Əliyev İli”nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (22)

### 1980-ci il 21-24 may

Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev Naxçıvan MSSR-ə səfəri zamanı akademik Y.H.Məmmədəliyevin və yazıçı M.S.Ordubadinin ev-muzeylərinin ekspozisiyasına baxıb. Naxçıvan şəhərinin baş planı ilə tanışlıq zamanı qədim Azərbaycan memarlığı nümunələri ilə müasir memarlığı üzvi surətdə əlaqələndirməyin zəruriliyi diqqətə çatdırılıb. Heydər Əliyev görkəmli şair Hüseyn Cavidin yaradılmaqda olan ev-muzeyinə də baş çəkib, tövsiyələrini verib.

### 1980-ci il 18 oktyabr

Heydər Əliyev Bakıda SSRİ yazıçılarının Ümumittifaq yaradıcılıq konfransının keçirilməsi üzrə təşkilat komitəsinin iclasında çıxış edib.

### 1980-ci il 27 oktyabr

Bakıda yazıçıların Ümumittifaq yaradıcılıq konfransı (27-31 oktyabr) işə başlayıb. Heydər Əliyev konfransda məruzə ilə çıxış edib.

*“...Azərbaycan zəhmətkeşləri öz əsərləri ilə tanınan və sevimli ədəbiyyat ustalarının respublikamızın paytaxtına toplaşması xəbərini böyük sevinclə qarşılamışlar. Biz Azərbaycana gəlişimizi xalqımızın yaradıcı əməyinə, onun ədəbiyyatının, bütün çoxçəhətli mədəniyyətinin nailiyyətlərinə diqqət və hörmətin ifadəsi hesab edirik...*

*Ölkəmizin ictimai-siyasi və mədəni həyatında konfransın əhəmiyyətini onun mövzusu müəyyən edir: “Xalqların dostluğu ədəbiyyatların dostluğudur”...*

*Sovetlər ölkəsində 77 milli ədəbiyyat yaranmışdır və müvəffəqiyyətlə inkişaf edir. 1979-cu ildə SSRİ-də 63 xalqın dilində ədəbiyyat nəşr edilmişdir. Bizdə, Azərbaycanda kitab nəşrinin miqyası milli mədəniyyətinin və ədəbiyyatın diqqətəlayiq müvəffəqiyyətlərinə parlaq misaldır. Təkcə 1979-cu ildə respublikada ümumi tirajı 13 milyon 800 min nüsxə, o cümlədən Azərbaycan dilində 11 milyon 100 min nüsxə olan 1300-dən çox kitab və kitabça çıxmışdır.*

*...Ədəbiyyatların qarşılıqlı təsiri yeni şey deyildir. Bütün ümumbəşəri mədəniyyət kimi, dünya ədəbiyyatı da sadəcə olaraq milli mədəniyyətlərin və ya ədəbiyyatların məcmusu deyildir, ən əvvəl onların məhz tarixi qarşılıqlı təsir və qarşılıqlı nüfuz prosesində yaranan müəyyən vəhdətidir. Heç bir xalq başqa xalqların nailiyyətlərindən istifadə etmədən inkişaf edə bilməz... Bədii ədəbiyyat xalqların mənəvi ünsiyyətinin, onların bir-birini başa düşməsinin, sərvət və nailiyyətlər mübadiləsinin ən geniş, səmərəli, dərin nüfuz edən vasitəsidir...*

*Azərbaycan xalqının XII əsrdə intibah dövrünü keçirən ədəbiyyatı Xaqaninin və Nizaminin timsalında, sonrakı əsrlərdə isə Nəsiminin, Füzulinin, Vaqifin, M.F.Axundovun, Sabirin timsalında dünya şöhrəti qazanmış, Yaxın Şərq və Qərb ölkələrində ədəbi prosesin estetik fikrinin inkişafına nəcib təsir göstərmiş, məsələn, Avropa ədəbiyyatının yeni ideyalar, mövzular və süjetlərlə zənginləşdirmişdir. Dahi söz ustaları bizə böyük estetik sərvətlər xəzinəsi, humanizm və xalqlar dostluğu kimi nəcib ideyaların çox zəngin bir aləmini qoyub getmişlər...*

*Azərbaycanın klassikasının və müasir ədəbiyyatının ən yaxşı nümunələri ümumittifaq oxucusuna verilmiş, ölkəmizin hüdudlarından kənara çıxmışdır...*

*...Əhalinin bütün təbəqələrinin əxlaqına təsir göstərmək üçün siz nasir və publisistlərin, şair və dramaturqların əlində ən güclü vasitə vardır: bu, bədii sözdür... Biz sizdən dərin məzmunlu və həyat materiallarını hərtərəfli təsvir edən yeni, maraqlı və parlaq əsərlər gözləyirik. Yazıçılar qarşısında duran vəzifələrin yerinə yetirilməsində ədəbiyyatşünaslığın, ədəbi-bədii tənqidin mühüm rolu vardır. Müasir ədəbi prosesi tələbkarlıqla təhlil etmək, ədəbiyyat və incəsənət əsərlərinin ideya-estetik səviyyəsinin yüksəldilməsi uğrunda mübarizə aparmaq ədəbi-bədii tənqidin borcudur...*

*Ümidvarıq ki, bu görüşlər qarşılıqlı surətdə maraqlı və faydalı olacaq, sizə xeyli həyat materialı verəcək, gələcək əsərləriniz üçün yeni yaradıcılıq ideyaları və fikirləri doğuracaqdır...”*

***

Mədəniyyət xadimlərinin yaradıcılıq nailiyyətləri dövlət tərəfindən qiymətləndirilirdi.

### 1980-ci il 25 aprel

Azərbaycan musiqi ifaçılığı sənətinin inkişafında xidmətlərinə görə və anadan olmasının 60 illiyi ilə əlaqədar olaraq Xalq artisti, tarzən Hacı Məmmədov Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilib.

### 1980-ci il 28 aprel

Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə ədəbiyyat, incəsənət və arxitektura sahəsində 1980-ci il Dövlət mükafatlarının laureatları elan edilib:

1. Yazıçı İmran Qasımov, rejissor Muxtar Dadaşov – “Azərbaycanfilm” kinostudiyasında istehsal olunmuş “Brejnev Bakıda” tammetrajlı sənədli filmi üçün.
2. Şair Əhməd Cəmil – son illərdə yazılmış və “Vaxtında gəlmişik bu dünyaya biz” kitabında toplanmış şeirlər üçün (ölümündən sonra).
3. Yazıçı, pyesin müəllifi Anar, rolların ifaçıları Səməndər Rzayev, Şəfiqə Məmmədova – Azərbaycan Dövlət Akademik Dram Teatrında göstərilmiş “Şəhərin yay günləri” tamaşası üçün.
4. Şair Əliağa Kürçaylı – son illərdə yazılmış və “Bütövlük” kitabında toplanmış şeirlər üçün (ölümündən sonra).
5. Yazıçı, ssenari müəllifi Rüstəm İbrahimbəyov, quruluşçu rejissor Rasim Ocaqov, rəssam Kamil Nəcəfzadə, rolların ifaçıları Hacı İsmayılov, David Uplisaşvili – “Azərbaycanfilm” kinostudiyasında istehsal olunmuş “Ad günü” bədii televiziya filmi üçün.
6. Bəstəkar Tofiq Quliyev – son illərdə bəstələdiyi mahnılar və kinofilmlərə yazdığı musiqi üçün.
7. Heykəltəraş Əhməd Salikov – Bakı şəhərində F.E.Dzerjinskinin abidəsi üçün.
8. Tənqidçi Yaşar Qarayev – “Poeziya və nəsr” ədəbiyyatşünaslıq tədqiqatı üçün.
9. Şair Məstan Əliyev – uşaqlardan ötrü “Çalğıçı quşlar” və “Bax, bu da İbrahimdir” şeirlər kitabları üçün.

**Hazırladı: V.Orxan**

***(davamı var)***

# Üçgünlük döyüş və əbədiyyət yolu

44 günlük İkinci Qarabağ müharibəsinin ən gənc şəhid qəhrəmanlarından biri də aprelin 2-də 21 yaşı tamam olan Elgün Mövlanovdur.




Elgün Tahir oğlu Mövlanov 2002-ci ildə Lerik şəhərində dünyaya göz açmışdı Özünü dərk edəndən Vətənə bağlanır, onun bir parçasının işğalı ilə barışmırdı.

Elgün halal, el-obasına bağlı bir nəslin nümayəndəsi idi, Azərbaycanın müqəddəsliyini hər şeydən əziz bilirdi. O, 2020-ci ildə ordu sıralarına yola düşür. Ön cəbhədə əsgəri borcunu şərəflə yerinə yetirir. Mənfur erməni hərbçilərini yurdumuzdan qovmaq üçün Ali Baş Komandanın əmrini hər an gözləyirdi.

2020-ci il sentyabrın 27-də İkinci Qarabağ müharibəsi başlanır. Köksündə əsl qəhrəman ürəyi döyünən Elgün Vətən naminə çəkinmədən odun-alovun içinə atılır. Bir amalı olur: torpağı qanı bahasına qorumaq, yağının ilan başını əzib qalib gəlmək. Dağlar diyarının igid oğlu düşmənə qarşı üç gün döyüşür. Sentyabrın 30-da Goranboy rayonunun Ağcakənd istiqamətində gedən ağır döyüşdə yağının gülləsinə tuş gəlir və şəhadətə yüksəlir. Lerik şəhərindəki Şəhidlər xiyabanında torpağa tapşırılır.

Qeyd edək ki, Elgünün özündən iki yaş böyük qardaşı Altay da Vətən müharibəsi şəhididir. O, Elgündən bir ay sonra, oktyabrın 30-da Füzuli rayonu istiqamətində döyüşlərdə şəhid olub...

İndi Lerik camaatı qəhrəman qardaşların adlarını hər yerdə qürurla çəkir, məzarları ilə yanaşı əziz xatirələrinə ucaldılan bulaq kompleksini də tez-tez ziyarət edir.

Allah rəhmət eləsin.

**Zəfər Orucoğlu**

# Qanlı tariximiz – ATMU-da anım tədbiri

Azərbaycan Turizm və Menecment Universitetində (ATMU) 1918-ci ildə azərbaycanlılara qarşı ermənilərin həyata keçirdiyi soyqırımının ildönümü ilə bağlı tədbir keçirilib.

ATMU-dan bildirilib ki, tədbirdə çıxış edən rektor İlham Mədətov XIX əsrin əvvəllərindən başlayaraq Qafqazda kütləvi şəkildə məskunlaşdırılan ermənilərin "böyük Ermənistan" adlı qondarma ideyanın gerçəkləşməsi yolunda azərbaycanlılara qarşı törətdikləri soyqırımı aktlarının zaman-zaman təkrarlandığını qeyd edib. Ümummilli lider Heydər Əliyev tərəfindən 1998-ci il martın 26-da imzalanan "Azərbaycanlıların soyqırımı haqqında" fərmanın bu tarixə siyasi qiymət verən proqram sənəd olduğunu deyən rektor həmin fərmanla 31 martın Azərbaycanlıların Soyqırımı Günü elan edildiyini diqqətə çatdırıb.

İctimai fənlər kafedrasının professoru, tarix elmləri doktoru Məhərrəm Zülfüqarlı qeyd edib ki, ötən əsrin əvvəllərində imperialist dairələrin birbaşa dəstəyi, həmçinin təşkilatçılığı ilə silahlı erməni millətçiləri və daşnak birləşmələri tərəfindən Bakıda, Şamaxıda, Qubada, Göyçayda, Lənkəranda, Salyanda, Zəngəzurda, Qarabağda, Naxçıvanda və digər bölgələrdə ağlagəlməz qətliamlar törədilib. Minlərlə soydaşımız qəddarlıqla öldürülüb. Qeyd olunub ki, Prezident İlham Əliyevin 30 dekabr 2009-cu il tarixli sərəncamı ilə Azərbaycan xalqının gələcək nəsillərinin milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsini əbədiləşdirmək məqsədilə Quba Soyqırımı Memorial Kompleksi yaradılıb.

Tədbirdə universitetin tələbələrinin də mövzu ilə bağlı çıxışları dinlənilib.

# 1918-ci il qırğınları ilə bağlı tarixi materiallar toplusu nəşr olunub

Tarix üzrə elmlər doktoru, professor, AMEA-nın Şərqşünaslıq İnstitutunun baş elmi işçisi Solmaz Rüstəmova-Tohidinin rus dilində "Qarabağ-Zəngəzur. 1918-ci il. Azərbaycan qırğınları sənədlərdə" kitabı nəşr edilib.

Nəşr "Azərbaycan hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının sənədləri" seriyasından növbəti topludur və Azərbaycanın Qarabağ bölgəsində, Gəncə quberniyasının Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzasında törədilən qətliamları əhatə edir.

Sənədlər 1918-ci ilin iyulunda Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin yaratdığı Fövqəladə Təhqiqat Komissiyası tərəfindən tərtib edilib və Birinci Dünya müharibəsinin başlanğıcından Cənubi Qafqaz ərazisində müsəlman əhaliyə və onların əmlakına qarşı həyata keçirilən zorakılıq, soyqırımı və talan faktlarını əhatə edir.

Bu topluda Fövqəladə Təhqiqat Komissiyasının "Gəncə quberniyasının Cəbrayıl qəzasının müsəlman kəndlərinin dağıdılması və ermənilərin onların sakinlərinə qarşı zorakılıqları haqqında", "Cavanşir qəzasının Kalaki kənd cəmiyyətinin 12 müsəlman kəndinin ermənilər tərəfindən dağıdılması haqqında", "Şuşa qəzasının müsəlman kəndlərinin ermənilər tərəfindən dağıdılması haqqında" və "Gəncə quberniyasının Zəngəzur qəzasına silahlı hücum və kəndlərinin dağıdılması haqqında" kimi materialları yer alıb. Sənədlər 1918-1919-cu illərdə Gəncə quberniyasının göstərilən qəzalarında Andranikin başçılığı altında erməni quldur dəstələrinin törətdiyi faciəli hadisələri nəzərdən keçirməyə imkan verir. Həmin hadisələrdə mindən çox dinc azərbaycanlı, o cümlədən qadınlar, uşaqlar və qocalar vəhşicəsinə qətlə yetirilib, yüzlərlə kənd, evlər, məscidlər, mülki obyektlər dağıdılıb, yandırılıb, azərbaycanlılara məxsus əmlak talan edilib.

Toplunun dörd bölməsində sadalanan qəzaların sakinlərinin ifadələri türk-müsəlman əhaliyə qarşı qırğınların xronologiyasını yaratmaq, zərərçəkənlərin dəqiq sayını, qətlə yetirilənlərin cinsini, yaşını, adlarını, dəymiş ziyanın həcmini, dağıdılmış və viran qalmış kəndlərin adlarını və s. müəyyən etməyə imkan verir. Erməni birləşmələrinin cinayət əməllərini təfərrüatı ilə ifşa edən sənədlər sübut edir ki, Qarabağ və Zəngəzur hadisələri erməni millətçilərinin irihəcmli əməliyyatlarının və planlarının tərkib hissəsi olmaqla, bölgədə müsəlman əhalini azaltmaqla bu əraziləri Ermənistana birləşdirmək məqsədi güdürdü. Topluya həmçinin məsələnin tarixinə dair elmi oçerk, ətraflı yardımçı informasiya aparatı və fotoşəkillər daxil edilib.

# "Ailəm Vətənim, övladlarım əsgərlərimdir..."

Düşmən tərəfindən işğal olunmuş torpaqlarımızın azad edilməsi uğrunda apardığımız mübarizə salnaməsində 2016-cı ilin Aprel döyüşləri xüsusi yer tutur. Dörd gün (2-5 aprel) davam edən həmin döyüşlərdə Cəbrayıl rayonu ərazisindəki Lələtəpə yüksəkliyinin işğaldan azad edilməsi ilə Cocuq Mərcanlı kəndi sakinlərinin doğma yurda qayıdışı gerçəkləşdi. Bu, Qarabağa Böyük Qayıdışın ilk müjdəsi idi.



Aprel döyüşlərinin 7-ci ildönümündə dördgünlük müharibənin şəhid baş leytenantı Cavid Dədəkişiyevi yada salırıq.

Cavid Gülbaba oğlu Dədəkişiyev 1988-ci il iyulun 5-də İmişli rayonunun Qaralar kəndində anadan olub. Cavidin uşaqlıq arzusu hərbçi olmaq idi. Bu arzu ilə o, 2006-cı ildə orta məktəbi bitirərək Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2009-cu ildə leytenant rütbəsi ilə Naftalandakı N saylı hərbi hissədə xidmətə başlayıb.

2016-cı il aprelin 2-nə keçən gecə Ermənistan silahlı qüvvələri genişmiqyaslı hərbi təxribatlar törədib. Yüksək döyüş hazırlıqlı hərbi birləşmələrimiz düşmənə layiqli cavab vermək üçün əks-həmlə əməliyyatına başlayıb. Tərtər, Cəbrayıl və Füzuli rayonları istiqamətində şiddətli döyüşlər olub. Ordumuz düşmənə sarsıdıcı zərbələr endirib. Hərbi əməliyyatlarda Cavid Dədəkişiyev də yaxından iştirak edib, Tərtər rayonunun Talış kəndi istiqamətində vuruşub. O, düşmənin çoxlu sayda canlı qüvvəsini məhv edərək qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb.

Cavidin evin böyük övladı olduğunu söyləyən atası Gülbaba Dədəkişiyev hər gün onun gəlişini gözlədiyini bildirir: "Mən gəncliyimdə özüm də hərbçi olmaq istəmişdim. Amma ağır ailə vəziyyətinə görə bu istəyim gerçəkləşmədi. Mənim arzuladığım yolu Cavid davam etdirdi. Cavidlə bağlı arzularımız böyük idi. Sonuncu dəfə onunla danışanda nəsə səsi xoşuma gəlmədi. Dedi ki, 5-10 günə məzuniyyətə gələcək. Fikrimiz var idi ki, onun üçün toy edək. Hər dəfə bu mövzudan söz salanda deyirdi ki, Qarabağ alınandan sonra toy edəcək. Şəhid olandan sonra bildim ki, istədiyi qız var imiş".

Anası Zülfiyyə Dədəkişiyeva bildirir ki, Cavid çox mehriban, qayğıkeş, vətənpərvər və savadlı oğlan idi: "O, yanımda olanda bütün kədərimi, dərdimi unudurdum. Bir oğul anası kimi mən də Cavidin toyunu görmək istəyirdim. Ancaq həmişə evlənmək adı gələndə deyirdi ki, "mənim ailəm Vətəndir, mənim övladlarım əsgərlərimdir". İndi tək bir təsəllim var ki, Cavidin və şəhidlərimizin qanı yerdə qalmadı. Allah bütün şəhidlərimizə rəhmət eləsin".

Şəhidin təhsil aldığı Qaralar kənd tam orta məktəbinin direktoru Xeyri Həsənli Cavidlə bağlı xatirələrini dilə gətirir: "Cavid çox savadlı oğlan idi. Orta məktəbi bitirən zaman mən ondan "nəyə görə hərbçi olmaq istəyirsən?" – deyə soruşanda Cavidin cavabı belə oldu: "O şanlı formanı geyinməyi çox istəyirəm". Hərbi məktəbdə oxuyarkən kursant kimi çəkdirdiyi ilk şəklini mənə gətirdi. Cavid həyatda çox ciddi insan idi. Ancaq o mənim yuxularıma həmişə gülümsəyərək girir...".

Bəli, Cavidin və Aprel döyüşlərində şəhid olan digər qəhrəmanlarımızın qanı yerdə qalmadı. 2020-ci il sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsində qüdrətli Ordumuz Aprel şəhidlərinin qisasını aldı, əzəli yurd yerlərimiz işğaldan azad olundu. İndi Cavidin və onun şəhid silahdaşlarının ruhu şaddır.

Cavid Dədəkişiyev aprelin 11-də doğulduğu Qaralar kənd qəbiristanlığında torpağa tapşırılıb. Ölkə başçısının müvafiq sərəncamı ilə ölümündən sonra "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı ilə təltif edilib.

Allah rəhmət eləsin.

**Nurəddin Məmmədli**

# Arazın gileyini qələmə alan şair

*"...Qalır bir tərəfdə zülmkar, yağı,*
*Deyirlər sən böldün ana torpağı"*



Sovet dövrü Azərbaycan poeziyasının tanınmış nümayəndələrindən biri də Xalq şairi Məmməd Rahim (1907-1977) olub. Əsasən siyasi ideologiyanın tərənnümçüsü olan şair ideya-bədii məziyyətlərinə görə seçilən maraqlı ədəbi nümunələr də qələmə alıb.

Məmməd Rahim 1907-ci il aprelin 20-də Bakıda doğulub. Ədəbiyyata erkən çağlardan maraq göstərib, bədii yaradıcılığa 1920-ci illərdən başlayıb. 1926-cı ildə "Gənc işçi" qəzetinə və "Gənc qızıl qələm" məcmuəsində ilk şeirləri dərc olunub və maraqla qarşılanıb. "Arzular" adlı ilk şeirlər kitabı isə 1930-cu ildə işıq üzü görüb. "Partizanın tüfəngi", "Nübar", "Vətən sevgisi" və s. əsərləri onu qısa vaxt ərzində istedadlı şair kimi tanıdıb.

O, yaradıcılıq axtarışları ilə günbəgün epik poeziyaya istiqamətlənib. Araşdırmalarda qeyd edilir ki, şairin epik janra yönəlməsi onun yaradıcılıq yollarında artıq püxtələşməsi ilə bağlı olub. Bu mənada müəllifin "Döyüş günləri", "Şairin xəyalı", "Arzu qız", "Qırx qız", "Ölməz qəhrəman" və s. əsərləri həmin illərin epik şeirinin inkişaf yollarına işıq tutur.

M.Rahim II Dünya müharibəsi illərində daha məhsuldar şəkildə yaradıcılıqla məşğul olub. Qələmə aldığı "Tək məzar", "Neftin dastanı", "Azərbaycan oğullarına!" , "Haqqın məhkəməsi", "Müqəddəs kədər", "Sədaqət", "Qafqaz ordusu" şeirləri, eləcə də "Leninqrad göylərində" və "Ölməz qəhrəman" poemaları bu mənada diqqətəlayiq nümunələr kimi, oxuculara gələcəyə inam, nikbinlik yaradıb. "Leninqrad göylərində" poeması şairin ən uğurlu əsərindən hesab olunur. Bu əsər həm də müəllifin şair kimi istedadının, poetik vüsətinin miqyasını əks etdirmək baxımından maraqlı nümunədir. İkinci Dünya müharibəsinin qəhrəmanlarından təyyarəçi soydaşımız Hüseynbala Əliyevə (1918-1941) həsr olunan poemanın proloqunda müəllif yazır:

*Ömür dedikləri coşqun çay kimi,*
*Kükrəyib köpürür, hər zaman gedir.*
*Ona bel bağlama o qədər də sən,*
*Bəzən açılmamış gül, bağban gedir...*
*Ey könül, fürsəti bada vermə, gəl,*
*Gün keçir, ay ötür, il yaman gedir.*
*Yarat, sən köçəndə ellər söyləsin:*
*Dünyadan nə gözəl bir insan gedir.*

Şair həyatda yaxşı ad qazananların heç vaxt unudulmayacağını diqqətə çatdırır.

M.Rahimin Cənubi Azərbaycan həsrətli şeirləri də maraq doğurur. Məlum olduğu kimi, ədəbiyyatımızda Araz çayı daha çox Vətəni ikiyə bölən, iki doğma elin qarşısında əsas maneə kimi mənalandırılıb. Şair isə Araz çayına fərqli münasibət bəsləyib. "Arazın şikayəti" şeiri bu mənada diqqətəlayiq nümunədir?



*Arazla bu səhər gəldim üz-üzə,*
*Axıb gedən zaman yaşıl bir düzə,*
*Dedi: "Şairlərdən şikayətim var.*
*Mənim çox qəribə hekayətim var".*
*Dedim ki: "Nə olub"?*
*Qövr etdi dərdi,*
*Dedi: "El bir zaman mənə deyərdi:*
*"– Arazım, Arazım, axan Arazım!*
*Sinəsi yadlara qalxan Arazım.*
*Çağla ki, sən mənim öz vüqarımsan,*
*Sevincim, fərəhim, iftixarımsan"!*
*Dedim ki: "Elədir",*
*Gəldi hiddətə:*
*"Elədirsə, nədən bəs qana-qana*
*Şairlər salırlar məni böhtana!*
*Qalır bir tərəfdə zülmkar, yağı,*
*Deyirlər sən böldün ana torpağı".*
*Ayrıldığım zaman kədərli çaydan,*
*Gördüm ki, qardaşım baxır o taydan...*

Şair uşaq və gənclərin də dünyasına xitab edib. Gənc nəslin hərtərəfli inkişaf etmiş vətəndaş kimi yetişməsi bütün yaradıcılığı boyu onu düşündürüb. Bir sıra məqalə və çıxışlarında uşaq ədəbiyyatının problemlərini gündəmə gətirib. Uşaq ədəbiyyatı yazarlarını səmərəli fəaliyyətə, əsərlərin ideya-bədii səviyyəsini yüksəltməyə çağırıb.

M.Rahim həm də musiqi duyumu olan nəğməkar şair kimi də tanınıb. Axıcı, həzin lirikasına görkəmli bəstəkarlarımız Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov və başqaları təkrar-təkrar müraciət ediblər. Şairin sözlərinə yazılan nəğmələr Zeynəb Xanlarova, Elmira Rəhimova, Məmmədbağır Bağırzadə və başqalarının ifalarında könülləri oxşayıb.

Sənətkar qələmini tərcüməçilik sahəsində də sınayıb. Nizami Gəncəvinin "Yeddi gözəl" poemasını (farscadan), Şota Rustavelinin "Pələng dərisi geymiş pəhləvan" əsərinin bir hissəsini, A.S.Puşkinin "Ruslan və Lyudmila", A.Blokun "On ikilər" və s. əsərləri dilimizə tərcümə edib.

Poeziyamızda öz dəst-xətti ilə seçilən Məmməd Rahim 6 may 1977-ci ildə vəfat edib, Fəxri xiyabanda dəfn olunub.

**Savalan Fərəcov**

# "Ozan-aşıq sənəti və ədəbiyyatı" kitabı işıq üzü görüb

Azərbaycan Aşıqlar Birliyinin sədri Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlının "Ozan-aşıq sənəti və ədəbiyyatı" kitabı işıq üzü görüb. Görkəmli folklorşünas alim, aşıq sənəti və ustad aşıqların yaradıcılığının yorulmaz tədqiqatçısı M.Qasımlının bu kitabı hələ XX əsrin 90-cı illərində işıq üzü görmüş və bu gün də tədqiqatçıların etibarlı mənbə kimi üz tutduqları "Ozan-aşıq sənəti" kitabının təkmilləşdirilmiş və əlavələr edilmiş yeni nəşridir.

Əvvəlki nəşrlərdən əsaslı şəkildə fərqlənən kitab 34 çap vərəqi həcmindədir və "Aşıq sənətinin tarixi kökləri", "Aşıqlıq: yaranış və biçimlənmə mərhələləri", "Aşıq mühitləri", "Aşıq ədəbiyyatı" bölmələrindən ibarətdir.

Kitabda ortaq türk mənəvi dəyərləri və mədəniyyətinin mühüm istiqamətləri, qam-şaman kompleksi, ozan sənəti və aşıqlığın tarixi-semantik mahiyyəti, aşıq mühitləri, eləcə də aşıq ədəbiyyatının səciyyəsi və əsas simaları konseptual və sistemli şəkildə açıqlanır, geniş etnocoğrafi hüdudlara malik olan türk etnik mədəni sisteminin tarixi-estetik mahiyyəti bir bütöv halında elmi müstəvidə təhlil olunur.

Professor M.Qasımlının da qeyd etdiyi kimi, sovet dönəmində aparılmış tədqiqatlarda ideoloji-siyasi basqılar nəticəsində kontekstin düzgün müəyyənləşdirilməməsi türk tarix və mədəniyyətinin kəskin təhriflərə məruz qalmasına, zərərli və natamam elmi qənaətlərə, yanlış dəyərləndirmələrə gətirib çıxarmışdı. "Aşıq sənəti" anlayışı altında Azərbaycan alimləri ancaq keçmiş Sovet İttifaqındakı Azərbaycan aşıq sənətini öyrənmişlər. Bu sənətin qaynaqlarını əhatə edən tarixi-coğrafi məkan isə daha böyük miqyaslıdır. Bütün bunları nəzərə alan M.Qasımlı bu fundamental əsərində aşıq sənəti və ədəbiyyatının istər genetik qaynaqları, istərsə də təşəkkül tarixi baxımından öyrənilməmiş problemlərini tədqiq edib.




Bu, müəllifin kitaba yazdığı ön sözdə də qeyd etdiyi kimi, ömrünün az qala əlli ilini həsr etdiyi, Azərbaycanla yanaşı, Qafqazın bir çox bölgələrini, Orta Asiya, İran və Anadolunu dönə-dönə gəzib zəngin məlumat topladığı gərgin bir zəhmətin bəhrəsidir.

Kitabdan folklor və xüsusən də aşıq sənətinin tədqiqatçıları, müvafiq ixtisaslar üzrə təhsil alan bakalavr və magistrlər faydalana biləcəklər.

Kitabın elmi redaktoru Əməkdar mədəniyyət işçisi Musa Nəbioğludur.

# Fəlsəfi, ənənəvi və müasir baxış tərzi

## Rəssam Rəfail Əliyevin yaradıcılığı haqqında...

İncəsənət gözlərdən qəlbə, qəlbdən isə ruhumuza sızan, duyğu və düşüncələrimizi qıdıqlandıran, bəzən tarixi dəyişən, bəzən də tarixə yön verən ən əsas anlayışlardan biridir. Rəfail Əliyev təsviri sənətimizdə öz palitrasını yaradaraq, individual bədii həll yolunu cızan, təkrarolunmaz sənət əsərləri ərsəyə gətirən rəssamlardandır.



O, 28 dekabr 1953-cü ildə Göyçay şəhərində anadan olub. Yaradıcılığa bədii metal emalı ilə başlayıb. Daha sonra isə təhsilini qrafika üzrə tamamlayıb. Lakin sənətkarın yaradıcılığında bədii oymanın da xüsusi önəminin olması danılmazdır. Sənət karyerasının təxminən iyirmi ilini bu sahəyə həsr edib. Onun ərsəyə gətirdiyi hər bir qravüra dərin məzmuna və zəngin, ənənəvi izlərə malikdir.

Rəfail Əliyevin yaradıcılığında Meksika incəsənətinin də təsirini duymaq olur. Məhz meksikalı rəssam Rufino Tamayo ilə tanışlığı onun yaradıcılıq istiqamətində yeni bir dönüşə səbəb olub...

Rəssamın portretlərinin ən maraqlı xüsusiyyətlərindən biri də onların izləyicilərə "ikonaları" xatırlatmasıdır. Monumental rəsmlərə və freska təsvirlərinə bənzəyən bu portretlər emosional səciyyəyə malikdirlər. Onun bu janrda ərsəyə gətirdiyi əsərlər arasında "Nar ilə qız", "Şərab dadımı", "Qırmızılar içində qadın", "Şərq gözəli", "Mavi kələğayı ilə qız", "Çiçəklərlə portret" və s. qeyd etmək olar.

Rəssamın zəngin və adətən isti tonlardan ibarət rəng palitrası sadəcə estetik duyumu deyil, dərin məna çalarını da ehtiva edir. Sürrealist baxış tərzi bəzən obrazlı və təsirli, bəzən də abstrakt görünür. Bəzən impressionist və ya post-impressionist, bəzən proto-kubist, bəzən də abstrakt yanaşma tərzi diqqətlə seçdiyi mövzular ilə, fərqli mədəniyyətlərə olan maraqlarla səsləşir. Bu səbəbdən rəssamın yaradıcılığında yapon mədəniyyəti və incəsənətini vurğulayan əsrarəngiz izlər də görmək mümkündür. Buna misal olaraq, "Bonsai, yapon ağcaqayını" əsərinin adını çəkə bilərik. Bonsailər əsasən dayaz keramika qablarda yetişdirilir. Bu miniatür ağaclar Kamakura dövründə yapon mədəniyyətinə elitar təbəqə tərəfindən daxil olub.

Təbiətə aid olan, tarazlaşdırılmış və ahəngdar səciyyə daşıyan hər bir səhnədə boyakar sanki mistik bir dünya qurmağa çalışır. Bu mistik dünyanı ən gözəl ifadə edən əsərlərdən biri "Abşeronun zeytun ağacları" tablosudur. Olduqca mücərrəd görünüşdə olan bu kompozisiyada istifadə olunan isti palitra mükəmməl bir seçimdir. Quraqlığa davamlı olan zeytun ağacları qumsal Abşeron torpaqlarına çox yaraşır. "Dənizkənarı, Bilgəh" rəssamın marina janrında əsərlərindəndir. Xəzər dənizinin sərin mehi, dalğalarının şıltaq oyunu rəssamın fırçasından süzülərək kətanın üzərində həkk olunub. O, sadələşdirilmiş kompozisiya quruluşuna minimal fırça vuruşları əlavə edərək rəsmin bir növ "nəfəs ala bilməsi" üçün şərait yaradır. Kiçik və titrək fırça vuruşlarıyla əsəri tamamlayan rəssam rəngləri həddən artıq qarışdırmadan, təbiətin hərəkətini və daim dəyişən əhval-ruhiyyəsini kətana köçürür, milli koloritlə ənənəvi faktura vuruşlarını kombinə edir. Qeyd etdiyimiz xüsusiyyətlərin nümunəsi kimi "Günəbaxanlar" əsərini misal çəkə bilərik. Qarışıq rənglərin hökm sürdüyü fon üzərində ön plana çəkilən günəbaxan çiçəkləri sanki "Yallı" rəqsini ifa edirlər.





Bununla belə, rəssam rəngkarlıq sahəsində də öz sözünü deyib. Onun kompozisiyalarının məhvərində dərin məna, fəlsəfə dayanır. Rəfail Əliyevin mürəkkəblikdən arınmış mücərrəd yanaşma tərzi bədii yaradıcılığının özünüfədə təzahürüdür. Rəssamın sənət rakursunda bəzən romantika, bəzən estetika, bəzən milli ruh, əsasən də fəlsəfi baxış hakimdir. Bununla yanaşı, yaradıcılığında xəfif sentimentallıq da özünü bürüzə verir. Ənənəviliyə və etnogenetik bağlılığa söykənən bədii sənət yolu rəssamın təcrübə süzgəcindən keçərək, milli köklərə və dəyərlərə əsaslanır. Məhz buna görə Rəfail Əliyevin bəzi əsərlərində qədim qayaüstü təsvirlərə olan bənzərlikləri də görmək mümkündür. Buna misal olaraq, "Cənnətdən qovulanlar" kompozisiyanın fiqurlarında keskin konturlar, lakoniklik və stilizasiyanı misal çəkə bilərik.

İnstinktiv obrazların müəllifi olan Rəfail Əliyevin yaradıcılığında təsvir etdiyi şəxslərin introspeksiyasının diqqətlə vurğulandığı portret janrının öz xüsusi yeri vardır. Portretlərinə unikal və müasir prizmadan baxan sənətkarın qadın fiqurlarının hər birinin simasında mülayimlik, həlimlik vardır. Bu qadınlar cazibədar və yaxud da ideal deyillər. Onlar olduqca təmkinli, yetkin və kamildirlər. Sənətkarın gözəllik və fəzilət ideallarını nəzərə çarpmayacaq şəkildə ifadə edə bilməsi təqdirəlayiqdir. Bu sənət nümunələrində obrazların konkret təsvirlərinə deyil, mücərrəd və ümumi görkəmlərinə xüsusi vurğu var. Fiqurların uzun üzləri, boyunları və bədənləri nisbətən daha kiçik əllərlə tamamlanır. Kompozisiyalarının fonuna isə əsasən dominant kontrastlar və rəng oyunları hakimdir. Bu təzadlar həm də kompozisiyanın formalarında özünü bürüzə verir. Sadə cizgiləri və stilizə fiqurları rəssamın kompozisiyalarını zənginləşdirir. Buna görə də rəssamın yaradıcılığında Amadeo Modilyani və Pablo Pikassonun təsirini görmək mümkündür.

Rəssamın sənət üslubunda diqqətçəkən məqamlardan biri də "Afrika/qəbilə" sənətindən ilham alaraq, ərsəyə gətirdiyi kompozisiyalardır. Onların içərisində ən maraqlısı akril ilə kətan üzərində işlənmiş "Maska" adlı nümunədir. O, ilk baxışdan Biombo və Qoma maskalarını bizə xatırladır. Müxtəlif həndəsi ornamentlər ilə bəzədilən bu maska təsvirində gözlər və alın müdrikliyi, daha kiçik ölçüdə həll olunan ağız ilə çənə isə təvazökarlığı simvolizə edir. Bu maskalar Afrika qəbilələrinin mərasim və ayinlərinin bir parçası hesab olunur, onların əcdadlarının ruhunu təmsil edirlər. Belə maskalar bir növ təbiət ilə ruh dünyasının arasında olan əlaqəni göstərir.



Onun palitrası olduqca rövşəndir, ahəstə rənglər və saf, şəffaf tonlar, oxra, qəhvəyi, torpaq rəngi, boz, mavi, qırmızı, yaşıl kimi rənglər ən çox müraciət etdiyi çalarlardır. Rəssamın kompozisiyaları üçün xətt dekorativ element deyildir. O, qurduğu kompozisiyalarda əvvələ təsvir etmək istədiyi fiqurun fiziki və psixoloji xüsusiyyətlərini ustalıqla şərh edir, digər tərəfdən isə plastik və xromatik həcmləri vurğulaya bilmək üçün titrək rəng keçişlərindən istifadə edir.

Bu mövzuda digər əsəri "İki katana" kompozisiyasıdır. Rəssamın olduqca maraqlı aspektdən yanaşdığı bu səhnədə "Daisho" – samurayların duellərdə istifadə etdikləri iki qılınc ilə duruş pozası təsvir olunub. Daha kubist nöqteyi-nəzərindən əks olunan bu əsərdə məhdud rəng və ton diapazonu ön plandadır.

Rəssamın yaradıcılığında mənzərə janrının da xüsusi yeri var. Təbiətin, yerlə göyün alternativ ritmlərini özündə cəmləşdirən mənzərə nümunələrində dinamika, həyəcan, məna və bir az da metamorfoz hissi duyulmaqdadır. Rəfail Əliyevin peyzajlarında nəzərə çarpan bir başqa prinsip həmin kompozisiyalarda dəyişkən perspektivanın mövcud olmasıdır. Rəssamın mənzərə təsvirləri lakonik, sadə və fiqurativdir. Kompozisiyalarda gördüyümüz tək və yaxud cüt fiqur; məsələn ağac, çay, çiçək, qaya və s. sadəcə hansısa bir obyekti deyil, əksinə, insana xas keyfiyyətlərə zənginləşdirilərək fəlsəfi mənanı təmsil edir. Buna ən maraqlı nümunə "Yol üzərində" əsəridir. Qoşun kimi yan-yana düzülən ağaclar sanki ilk baxışda bizə bir qrup insanı xatırladır. Əsərdəki fərqli konturlar və kontrast nisbəti kompozisiyanı mücərrədləşdirən ən önəmli faktordur. "Xəzərin sahilində" tablosunda isə dolğun və ifadəli xətlər kompozisiyanı dolduran, estetik gücünü artıran əsas ünsürlərdir. Kompozisiyada küləyə meydan oxuyan üç ağac fiquru ona məhəl qoymadan öz əzəmətini qoruyub saxlamağa çalışır. Bu ağaclar həm də tamaşaçılara kiçik bir ailəni xatırladır. Çətinliklərlə üzləşsə belə, əslə dağılıb, məhv olmayan bir ailə.

İncəsənət həmişə ziddiyyətlərin mübarizəsinin simvolu olub. Rəssamın yaradıcılığında da simvolların xüsusi yeri vardır. Belə simvollardan biri də zənginliyin və bərəkətin rəmzi hesab olunan nardır. Rəssamın müxtəlif rakursdan təsvir etdiyi "Narlar", qadın obrazının bir əlində nar, digərində quş təsvir olunan "Musiqi", isti tonlarla kəskin konturların vurğulandığı "Nar ağacı" bu nümunələr arasındadır. Təbiətlə əlaqə qurmağın bir çox yolu var və bu yollardan biri də bitki və heyvan simvollarından istifadə etməkdir. Bəlkə də rəssamın Göyçayda doğulub, boya-başa çatması onun nar təsvirinə olan marağının izahıdır.

Sənətkarın yaradıcılıq fəaliyyətində tez-tez rastlaşdığımız bir fiqur da animalistik səciyyəyə malik təsvirlərdir. Belə fiqurlardan biri də balıqdır. "Balıqlar", "Balıq və balıqçı", "Səhər" kimi kompozisiyalarda təsvir olunan bu fiqur adətən zənginlik, firavanlıq və bolluq rəmzi hesab olunur. Rəssamın bir başqa sevimli animalistik obrazı atdır. Xarakterinə əsasən azad ruhlu olan bu heyvanlar zəfəri də təmsil edir. Əzəmətini öz yurdundan alan, dillər əzbəri olan Qarabağ atları rəssamın bədii yaradıcılığında mühüm yer tutur. "At", "At hekayəsi", "Qarabağ ayğırı" əsərləri bu qəbildəndir.

Rəfail Əliyevin haqqında söz açsa biləcəyimiz əsərlərinin sayı çoxdur. Bu gün də öz üslubunu püxtələşdirən rəssamın sənətə olan məhəbbəti göz önündədir. Rəssam sənətdən bəhrələnərək sənətə də öz qiymətli töhfələrini verməkdədir...

**Nigar Hətəmova**
**Azərbaycan Dövlət Rəsm Qalereyasının kiçik elmi işçisi**

# Əqli mülkiyyət və qabaqcıl texnologiyalar

Dünya Əqli Mülkiyyət Təşkilatı "Əqli mülkiyyət və qabaqcıl texnologiyalar" mövzusunda tədbir keçirib. Hibrid formatda keçirilən tədbirə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin əməkdaşları videokonfrans rejimində qatılıblar.

Agentlikdən bildirilib ki, DƏMT-in baş direktoru Daren Tanq açılış nitqi ilə çıxış edib. "Siz nə vaxtsa metakainatda olmusunuzmu?" mövzusu ilə başlayan tədbirdə əqli mülkiyyət hüquqlarının innovasiya və yaradıcılığın inkişafında oynadığı rol barədə dialoq aparılıb.

Sonra "Elmi fantastikadan reallığa doğru", "Kod sındırılana qədər bütün informasiya səs-küy kimi idi" və "Metakainatı deşifrə edərkən" mövzularında müzakirələr olub.

Birinci paneldə çıxış edənlər bildiriblər ki, bəziləri metakainatı inkişafın növbəti mərhələsi olduğunu qeyd edirlər. Onların fikrinə görə, metakainat inkişafın növbəti mərhələsi olub qarşılıqlı əlaqədə olduğumuz və həyatımızı yaşadığımız transformativ inqilabdır. Digərləri isə bunu ya mövcud videooyun platformaları üzərində yenilik, ya da mövcud olmayan reallıq kimi qəbul edirlər. İştirakçılar həm də gələcəyə baxmağa və metakainat yaratmaq üçün nəyin lazım olduğunu, onun tənzimləyici çərçivəsinin nədən ibarət olduğunu və əqli mülkiyyətin bu sahədə hansı rol oynaya biləcəyini müzakirə ediblər.

Paneldə metakainatı ərsəyə gətirən memarların planları, çertyojları və əqli mülkiyyətlə bağlı biliklər, eyni zamanda metakainatın iqtisadiyyatı, metakainatda həyat, iş, oyun və əqli mülkiyyətlə bağlı biliklər mövzusunda müzakirələr olub. Tədbirin birinci gününün yekununda rəqəmsal iqtisadiyyatda və virtual reallıqda əqli mülkiyyətin gələcəyi haqqında müzakirə aparılıb.

İkinci gün oyunlar və əqli mülkiyyət göstəriciləri, yurisdiksiya və metakainatda əqli mülkiyyət hüquqlarının həyata keçirilməsi mövzuları müzakirə edilib, metakainatın potensialının həyata keçirilməsi mövzusunda videotəqdimat nümayiş edilib. Sonda açıq müzakirələr keçirilib.

## Xatirə təqvimi — 5–7 aprel

### Azərbaycan

**5 aprel 1909** – Tanınmış bəstəkar Asəf Zeynalabdin oğlu Zeynallı (1909 – 27.10.1932) Şuşada doğulub. Musiqi tariximizdə yeni janrların yaradıcısı, simfonik, kamera-vokal və instrumental əsərlərin, uşaqlar üçün ilk musiqi əsərinin ("Uşaq süitası") müəllifidir. Xalq mahnılarını nota köçürüb.

**5 aprel 1929** – Xalq artisti, pianoçu Çingiz Hacı oğlu Sadıxov (1929 – 30.12.2017) Bakıda anadan olub. Azərbaycan Dövlət Filarmoniyasının solisti kimi məşhur vokalçıları müşayiət edib. "Azkonsert"in bədii rəhbəri olub. 1994-cü ildən ABŞ-da yaşayıb və orada dünyasını dəyişib. Bakıda dəfn olunub.

**5 aprel 1940** – Şair, nasir, ədəbiyyatşünas Arif Əbdürrəhman oğlu Abdullazadə (1940-2002) Şəkidə anadan olub.

**5 aprel 1941** – Bəstəkar, pedaqoq, Əməkdar incəsənət xadimi, Əməkdar müəllim Oqtay Məmmədağa oğlu Rəcəbov (1941 – 15.12.2022) Bakıda anadan olub. "Göyçək Fatma", "Xeyir və Şər" uşaq operaları, musiqili komediya və s. əsərlərin müəllifidir. Filmlərə musiqi yazıb.

**5 aprel 1947** – Xalq artisti, rejissor Vaqif Firudin oğlu Əsədov (1947 – 19.5.2022) Naxçıvanda anadan olub. Naxçıvan Dövlət Musiqili Dram Teatrında işləyib. 1989-cu ildən Dövlət Gənc Tamaşaçılar Teatrında fəaliyyət göstərib.

**5 aprel 2021** – Xalq artisti, tanınmış gitara ifaçısı Rafiq Hüseyn oğlu Hüseynov (14.11.1944 – 2021) vəfat edib.

**6 aprel 1935** – Əməkdar mədəniyyət işçisi, aşıq Şərbət Fətiyev (1935-2016) Şamaxıda doğulub.

**6 aprel 1939** – Xalq artisti, kinorejissor, ssenarist, yazıçı, professor Tofiq Hüseyn oğlu İsmayılov (1939 – 25.3.2016) Bakıda anadan olub. Filmləri: "Gilas ağacı", "Mən mahnı qoşuram", "Musiqi müəllimi", "Əzablı yollar", "Vulkana doğru", "Oxuyur Müslüm Maqomayev" və s.

**6 aprel 2021** – Əməkdar incəsənət xadimi, tarzən, Azərbaycan Milli Konservatoriyasının professoru Oqtay Süleyman oğlu Quliyev (22.9.1938 – 2021) vəfat edib.

**6 aprel 2021** – Əməkdar mədəniyyət işçisi, teatr xadimi Həsən Nəsib oğlu Həsənov (7.7.1950 – 2021) vəfat edib.

**7 aprel 1906** – Azərbaycanın ilk satirik nəşri olan "Molla Nəsrəddin" jurnalının birinci sayı çapdan çıxıb. Cəlil Məmmədquluzadənin redaktoru olduğu jurnal 1906-1918-ci illərdə Tiflisdə, 1921-ci ildə Təbrizdə, 1922-1931-ci illərdə Bakıda nəşr edilib. Jurnalda Ö.F.Nemanzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, Ə.Nəzmi, M.S.Ordubadi, Ə.Əzimzadə və başqaları fəaliyyət göstərirdi.

**7 aprel 1930** – Tanınmış jurnalist, mədəniyyət xadimi Azad Ağakərim oğlu Şərifov (1930 – 24.12.2009) anadan olub. Azərbaycan Dövlət Kinematoqrafiya Komitəsinin sədri, "Azərinform"un (indiki AZƏRTAC) direktoru işləyib.

### Dünya

**5 aprel 1588** – İngilis filosofu Tomas Hobbs (Thomas Hobbes; 1588-1679) anadan olub.

**5 aprel 1900** – Amerika aktyoru, "Oskar" mükafatçısı Spenser Treysi (Spencer Tracy; 1900-1967) anadan olub.

**5 aprel 1945** – Türk bəstəkarı və müğənnisi, türk rok musiqisinin yaradıcılarından biri Cem (Muxtar) Karaca (1945 – 8.2.2004) anadan olub.

**6 aprel 1826** – Fransız rəssamı, simvolizmin nümayəndəsi Qustav Moro (Gustave Moreau; 1826-1898) anadan olub. Əsərləri: "Edip və Sfinks", "Yupiter" və s.

**6 aprel 1929** – Alman əsilli Amerika bəstəkarı və dirijoru Andre Previn (Andreas Ludwig Priwin; 1929-2019) anadan olub. Film musiqilərinə görə 4 dəfə "Oskar" mükafatı qazanıb.

**7 aprel 1883** – İtaliya rəssamı və heykəltəraşı, futurizm cərəyanının banilərindən biri Cino Severini (1883-1966) anadan olub.

**7 aprel 1889** – Çili şairi, ədəbiyyat üzrə Nobel mükafatı (1945) laureatı Qabriela Mistral (Gabriela Mistral – əsl adı Lucila Godoy Alcayaga; 1889-1957) anadan olub.

**Hazırladı: V.Orxan**

# Elektron mühitdə uşaq və yeniyetmələrin mütaliəsi

2 aprel dünyada Beynəlxalq Uşaq Kitabı Günü kimi qeyd olunur. Uşaq ədəbiyyatı ilə bağlı günün bu tarixə təsadüf etməsi məşhur danimarkalı yazıçı, uşaqlar üçün çoxsaylı maraqlı nağıllar müəllifi Hans Kristian Andersenin (1805-1875) aprelin 2-də anadan olması ilə bağlıdır.

1967-ci ildən etibarən yazıçının doğum günü Uşaq Kitabları üzrə Beynəlxalq Şuranın (İBBY) təşəbbüsü ilə bütün dünyada Beynəlxalq Uşaq Kitabı Günü kimi qeyd olunur. Beynəlxalq Uşaq Kitabı Günü cəmiyyətin diqqətini uşaq ədəbiyyatına, onun problemlərinə və kitab mədəniyyətinə cəlb etmək məqsədi daşıyır.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Elmi-metodika şöbəsi tərəfindən "Elektron mühitdə uşaq və yeniyetmələrin mütaliəsi" adlı virtual metodik vəsait təqdim edilib.

Metodik vəsaitdə mütaliənin rolu, kitabxana işinin məqsədi, elektron kitabxanalarla ənənəvi kitabxananın fərqli və oxşar cəhətləri haqqında fikirlər, həmçinin vəsaitin II hissəsində isə dahi şəxsiyyətlərin mütailə və kitabxana barədə fikirləri yer alıb.

Təqdim edilən vəsait yeniyetmə və gənclər, kitabxanaçılar, metodistlər, müəllimlər və digər istifadəçiər üçün nəzərdə tutulub. Vəsaitin sonunda kitabxananın fondu əsasında hazırlanmış ədəbiyyat siyahısı da təqdim edilib.

Metodik vəsaitlə kitabxananın saytında müvafiq bölmədə (Biblioqrafik xidmətlər) tanış olmaq olar.

# Doktorantura və dissertanturaya qəbul elan edilib

Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) fəlsəfə doktoru və elmlər doktoru hazırlığı üzrə doktorantura və dissertanturaya qəbul elan edib.

Akademiyadan bildirilib ki, sənəd qəbulu aprelin 5-dən mayın 5-dək iş günlərində saat 10:00-dan 17:00-dək AMEA-nın müvafiq elmi müəssisələrində aparılacaq.

Fəlsəfə doktoru proqramı üzrə doktorantura və dissertanturaya ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan Azərbaycan Respublikasının vətəndaşları sənəd verə bilərlər.

Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul olmaq istəyən şəxslər xarici dil, fəlsəfə və ixtisas fənnindən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində qəbul imtahanları verirlər.

Fəlsəfə doktoru proqramı üzrə dissertanturaya müvafiq tədqiqat sahəsində müəyyən müvəffəqiyyətləri olan və əsas iş yeri ali təhsil müəssisəsi, elmi müəssisə və təşkilat olan elmi və elmi-pedaqoji kadrlar (azı 2 il elmi və ya elmi-pedaqoji iş stajı) müraciət edə bilərlər. Dissertanturaya qəbul olmaq istəyən şəxs xarici dil üzrə ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanında keçid balını toplamalıdır.

Elmlər doktoru proqramı üzrə doktoranturaya seçdikləri sahədə elmi və ya elmi-pedaqoji nailiyyəti olan, "Fəlsəfə doktoru" (elmlər namizədi) elmi dərəcəsi olan Azərbaycan Respublikasının vətəndaşları qəbul edilirlər.

# Azərbaycan Luvrdakı "Art Shopping" müasir incəsənət festivalında təmsil olunub



Parisdəki Luvr Muzeyinin "Karusel" ("Carrousel") qalereyasında ənənəvi "Art Shopping" incəsənət festivalı təşkil edilib. 31 mart – 2 aprel tarixlərində gerçəkləşən festivalda ölkəmiz Heydər Əliyev Fondunun təşkilatçılığı və Azərbaycanın Fransadakı Səfirliyinin dəstəyi ilə yaradılan pavilyonla təmsil olunub. Azərbaycan incəsənət nümayəndələrinin əsərləri fransız, eləcə də müxtəlif ölkələrdən sənətsevərlərin diqqət mərkəzində olub.

Pavilyonun təqdimatında Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva, "Carrousel" qalereyasının direktoru Miryam Annone Kastane (Myriam Annonay Castanet) və qalereyanın kommersiya direktoru Stefan dö Boyson (Stephane de Boysson) çıxış ediblər.

Miryam Annone Kastane Azərbaycanla əməkdaşlıqdan məmnunluğunu bildirib, Heydər Əliyev Fonduna "Art Shopping" salonu ilə əməkdaşlıq təşəbbüsünə, heykəltəraş Elvin Nəbizadəyə və rəssam Anar Hüseynzadəyə möhtəşəm əsərlərinə görə təşəkkür edib.



Səfir Leyla Abdullayeva Avropa və Asiya arasında yerləşən Azərbaycanın zəngin mədəni irsindən söz açıb, ölkəmizin mədəniyyətinin beynəlxalq səviyyədə tanınması istiqamətində Heydər Əliyev Fondunun həyata keçirdiyi böyük layihələrdən danışıb. Bildirib ki, məhz Heydər Əliyev Fondunun təşəbbüsü ilə iki azərbaycanlı incəsənət nümayəndəsinin əsərləri "Art Shopping" festivalında nümayiş olunur.

Stefan dö Boyson Azərbaycanın müasir incəsənətindən söz açaraq, Bakıya səfərindən danışıb. Ölkəmizdə sənətə yüksək qiymət verildiyini bildirərək, istedadlı azərbaycanlı rəssamlar, nadir müasir incəsənət əsərləri haqqında məlumat verib.

Azərbaycan pavilyonunun ziyarətçiləri heykəltəraş Elvin Nəbizadənin 2017-ci ildə Venesiya Biennalesi üçün yaratdığı və Heydər Əliyev Fondu tərəfindən Luvrdakı "Art Shopping" festivalında nümayiş olunmaq üçün seçilmiş "Bir günəş altında" adlı müasir instalasiyasını heyranlıqla seyr ediblər.



Müəllif ziyarətçilərin suallarına cavab olaraq bildirib ki, göy qurşağı formasında 44 sazdan ibarət instalyasiya Azərbaycanda multikulturalizmin – ölkədə yaşayan müxtəlif millətlərin və xalqların birliyinin, onlara qarşı tolerantlıq və hörmətin simvoludur.

Azərbaycan pavilyonunun ziyarətçiləri rəssam Anar Hüseynzadənin tablolarını seyr ediblər. Xarici ziyarətçilər azərbaycanlı rəssamın əsərləri vasitəsilə qədim İçərişəhər, onun özünəməxsus dar küçələri, doğma Abşeronla tanış olublar.

A.Hüseynzadənin simvolizm qrupundan olan rəsm əsərləri qeyri-adi yanaşmada olan natürmort və portretlərlə təqdim olunur. Onun "Kosmos" seriyasından olan əsərləri ilk dəfə bu salonda tamaşaçılara təqdim olunub.

Qeyd edək ki, Azərbaycanın "Carrousel Art Shopping" festivalında iştirakı çərçivəsində instaqram sosial şəbəkəsində "Fransada Azərbaycan müasir incəsənəti" mövzusuna həsr olunmuş səhifə yaradılıb. Həmçinin rəssam Anar Hüseynzadə tərəfindən ustad dərsləri keçirilib.

# Türkiyənin 60 illik xəyalı

## İlk yerli avtomobil "TOGG" sahiblərinə təqdim edilib

Aprelin 3-də Türkiyənin ilk yerli avtomobili – "TOGG" elektromobilinin T10X modeli Prezident Rəcəb Tayyib Ərdoğana və xanımı Əminə Ərdoğana təqdim edilib. Prezident tünd-göy rəngli, xanımı isə qırmızı rəngli maşını seçib.



Mərasimdə çıxış edən Rəcəb Tayyib Ərdoğan türk millətinin 60 illik xəyalının reallığa çevrilməsinin önəmini vurğulayıb. Ölkənin qüruru olan yerli və milli "TOGG" markasının ilk sifarişini 2019-cu ildə verdiklərini və bu gün ilk avtomobilləri təhvil aldıqlarını vurğulayan dövlət başçısı deyib: "Türkiyə yüzilliyinin ilk meyvələrindən olan "TOGG"un bütün millətimizə xeyirli-uğurlu olmasını arzulayıram. "TOGG" ölkəmizin texnoloji inkişafının, iqtisadi yüksəlişinin və qlobal etibarının simvolu olaraq meydana çıxmış, inkişaf etmiş və bugünkü səviyyəyə çatmışdır".

Xatırladaq ki, Türkiyənin mobillik sahəsində xidmət göstərən qlobal texnologiya markası "TOGG"un kütləvi istehsal zavodunun rəsmi açılış mərasimi ötən il oktyabrın 29-da keçirilib. Zavod Bursa vilayətinin Gemlik rayonunda inşa olunub. Zavodun açılışı ilə yerli avtomobilin kütləvi istehsalı prosesi başlanıb. "TOGG" avtomobilləri "Pamukkale", "Anadolu", "Gemlik", "Kula", "Oltu" və "Kapadokya" olmaqla altı rəngdə istehsal olunur. Avtomobil iki modifikasiyada – 200 və 400 at gücündə elektrik mühərriki ilə buraxılır. Ən güclü versiya 100 kilometr-saat sürətini 4,8 saniyəyə yığa bilir. Elektromobilin batareyalarını təkrar doldurmadan maksimal gediş məsafəsi 500 kilometrə yaxındır. Avtomobillərin hazırlanması zamanı onların ətraf mühit üçün tam zərərsiz olmasına xüsusi diqqət yetirilib.

"TOGG"un T10X modelini almaq imkanı qazanan 20 min nəfər əvvəlcədən sifariş verən 177 min 467 nəfər arasında püşkatma nəticəsində seçilib. Onların siyahısı "TOGG"un rəsmi internet saytında elan edilib.

# Kim ki 150 il yaşamasa...

ABŞ-nin Corciya Universitetinin alimləri ömür uzunluğu ilə bağlı tədqiqat aparıblar və onun durmadan artdığını aşkar ediblər. Hesablamalara görə, növbəti 40 ildə yeni rekordlara imza atılacaq – insanlar 150 ilə qədər yaşaya biləcək. Modelləşdirmə, həmçinin göstərir ki, bu hələ mümkün olan maksimal yaş deyil.



Qeyd edilir ki, 122 il yaşamış fransalı Janna Luiza Kalmanın (1997-ci ildə vəfat edib) rekordu son iyirmi beş ildə təzələnməyib. Bu, hələlik insan üçün son yaş həddi hesab olunur.

Yeni tədqiqatda bu iddiaya şübhə ilə yanaşılıb və bu həddin gələcəkdə artacağı bildirilib. Alimlər tərəfindən sırf riyazi iş görülüb: onlar sənaye nöqteyi-nəzərdən inkişaf etmiş 19 ölkədə 1700-cü və 1900-cü illərin sonu arasında dünyaya gələn yüz milyonlarla insanın ölüm halları ilə bağlı məlumatları təhlil etmək üçün mövcud modeli dəyişdirib. Model qanunauyğunluqlar aşkar edib və onların əsasında insanın gələcəkdə potensial yaşını proqnozlaşdırıb. Müəyyən edib ki, 1900-cü ilə qədər dünyaya gəlmiş insanlar üçün 122 yaş son hədd ola bilər. Lakin artıq 1910–1950-ci illərdə dünyaya gələnlər üçün ömür uzunluğu əhəmiyyətli dərəcədə artıb. Ehtimal edilir ki, bu ictimai səhiyyə və tibbi texnologiyalar sahəsində islahatların birinci dalğası ilə əlaqədar ola bilər. Alimlər hesab edirlər ki, tədqiqatla əhatə olunan əksər ölkələr üçün maksimal yaş gələcəkdə artacaq.

Lakin bəzi ekspertlər tədqiqatın nəticələri ilə razılaşmayaraq bildirirlər ki, bu araşdırma sırf riyazi və demoqrafik xarakter daşıyır və qocalmanın biologiyasını nəzərə almır. Misal üçün, insan orqanizminin hüceyrələri xərçəng kimi yaş xəstəliklərinə meyillidir. Tənqidçilər hesab edirlər ki, bu cür proqnozlar yalnız böyük qrup canlı varlıqların iştirakı ilə aparılan tədqiqatların əsasında verilə bilər, çünki ömrün uzunluğu bioloji kateqoriyadır. Müəlliflər iradla razılaşaraq qeyd ediblər ki, riyazi model yenə də ölüm halları ilə bağlı tarixi məlumatlara əsaslanan çox faydalı məlumat verib.

# Bakı dünyanın səyahət üçün trend məkanları siyahısında

Dünyada turizm üzrə böyük platformalardan olan "Tripadvisor" saytı Bakı şəhərini səyahət üçün üstünlük verilən trend məkanlar siyahısına daxil edib.



8. Baku, Azerbaijan

The historical center of Baku reveals its tumultuous past, from its roots as a Silk Road port city, through its oil boom to its Soviet period. The old city is a maze of alleys, mosques, historic buildings and remnants of fortification, including the Palace of... more

Don't miss

- Gobustan and Absheron tour (All inclusive)
- Shamakhi and Gabala Tour (All inclusive)
- City Tour in Baku

All 749 things to do

9. Kathmandu, Nepal

Nepal's capital is surrounded by a valley full of historic sites, ancient temples, shrines, and fascinating villages. Mingle with locals and animals amid Durbar Square's monuments, or join mountain trekkers in the bustling Thamel District. Explore shops for... more

Don't miss

- Everest Scenic (Mountain) Flight with Hotel Pickup/Drop
- Private Kathmandu Sightseeing Tour - UNESCO World Heritage Sites
- Nagarkot Sunrise View and Day Hiking from Kathmandu

All 2603 things to do

Dövlət Turizm Agentliyinin məlumatına görə, platforma tərəfindən tərtib edilmiş siyahı 2022-ci il ərzində sayt istifadəçilərinin axtarış və maraqlarına əsaslanır. Saytın "Dünya üzrə trend məkanlar" bölməsində dünyanın 25 fərqli ölkəsinin şəhərləri qeyd olunub. Siyahıda Azərbaycan paytaxtı 8-ci sıradadır.

İlk onluqda 2021-ci illə müqayisədə 2022-ci ildə ən çox axtarış edilən ölkələr yer alıb.

Qeyd edək ki, "Tripadvisor" turistlər üçün maraqlı məkanları, ən yaxşı hotelləri, yemək üçün uyğun yerləri tövsiyə edir. Hər ay 460 milyondan çox səyahətçiyə xidmət göstərən platformada ziyarətçilər məkanlarla bağlı istifadəçi şərhlərini oxuya və tövsiyələrə uyğun seçimlərini edə bilirlər. Saytda 8,6 milyon yerləşmə vasitəsi, restoran, hava yolları və gəmi səyahəti haqqında 859 milyondan çox istifadəçi rəyi mövcuddur.

# "İki səs, bir sevgi"

## Budapeştdə azərbaycanlı şairlərin şeir gecəsi

Aprelin 3-də Azərbaycanın Macarıstandakı Səfirliyində "İki səs, bir sevgi" adlı şeir gecəsi təşkil olunub.



Azərbaycanın Macarıstandakı səfiri Tahir Tağızadə giriş sözündə iki ölkə arasında mədəniyyət sahəsində mövcud əməkdaşlığın yüksək səviyyəsindən məmnunluğunu ifadə edib.

UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının dəstəyi ilə keçirilən tədbirdə Çexiyada yaşayan şairə və dramaturq Leyla Bəyim və YARAT Müasir İncəsənət Məkanında ictimai proqramların rəhbəri, şairə və tərcüməçi Ülviyyə Axundova müəllifi olduqları şeirləri səsləndiriblər. Budapeştdə yaşayan gənc azərbaycanlı pianoçu Sona Ağarzayeva öz ifası ilə poeziya gecəsini müşayiət edib.

Tədbirdə Macarıstanın dövlət qurumları, mətbuat, ictimai-siyasi, elmi və mədəni dairələrin, Macarıstanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri, Macarıstandakı Azərbaycan diasporunun təmsilçiləri, Budapeşt şəhərində təhsil alan azərbaycanlı və əcnəbi tələbələr iştirak edib.




## Olaylar, faktlar (5-7 aprel)

### 209 il əvvəl...

**6 aprel 1814-cü ildə** Rusiya, Prussiya, Avstriya və Britaniya müttəfiq qoşunlarının Parisə daxil olması ilə Napoleon Bonapart taxt-tacdan əl çəkib. Müttəfiqlər Napoleonun imperator titulunu (formal olaraq) saxlamaqla, habelə illik maddi təminat və mühafizə ayırmaqla onu Elba adasına (Aralıq dənizində) sürgün etdilər.

### 127 il əvvəl...

**6 aprel 1896-cı ildə** Yunanıstanın paytaxtı Afinada ilk Yay Olimpiya Oyunları başlanıb. Baron Pyer de Kubertenin təşəbbüsü ilə başlanan Olimpiya hərəkatı müasir dünyanın ən əlamətdar hadisələrindən biridir.

### 103 il əvvəl...



**7 aprel 1920-ci ildə** Türkiyə Cümhuriyyətinin rəsmi informasiya-yayım qurumu – Anadolu Agentliyi yaradılıb. Cümhuriyyətin özündən üç yaş böyük olan agentlik Qurtuluş savaşı haqqında xəbərləri yaymaq məqsədilə Mustafa Kamal Atatürkün təlimatı əsasında Ankarada yazıçı Halide Edip Adıvar və jurnalist Yunus Nadi tərəfindən qurulmuşdu. Hazırda 13 dildə xəbərlər yayan Anadolu Agentliyinin 100-dək ölkədə təmsilçiliyi var.

**7 aprel 1920-ci ildə** Şeyx Məhəmməd Xiyabaninin başçılığı ilə Təbrizdə üsyan başlanıb. Bu, 1905-1911-ci illər inqilabından sonra İranda yaşayan azərbaycanlıların ikinci milli azadlıq hərəkatı idi. Təbrizdə kütləvi çıxışlar 1919-cu ilin avqustunda Britaniya-İran sazişinə etiraz idi. Həmin sazişə əsasən, Cənubi Azərbaycandakı ingilis hərbi qüvvələrinə geniş hökmranlıq verilmişdi. Üsyanın nəticəsi olaraq həmin ilin iyununda Təbrizdə milli hökumət quruldu. Lakin onun ömrü az oldu və sentyabrda Xiyabaninin qətlə yetirilməsi ilə süqut etdi.

### 78 il əvvəl...

**5 aprel 1945-ci ildə** Yalta konfransının (SSRİ, Böyük Britaniya, ABŞ) öhdəliyinə əsasən, SSRİ Yaponiya ilə neytrallıq haqqında müqaviləni (1941-ci il aprelin 13-də imzalanmışdı) qüvvədən salaraq ona müharibə elan edib. Alman faşizminin süqut etdiyi bir vaxtda Uzaq Şərqdə təhdid doğuran Yaponiyanın öhdəsindən gəlmək SSRİ-nin üzərinə qoyulmuşdu.

### 77 il əvvəl...



**7 aprel 1946-cı ildə** Dünya Səhiyyə Təşkilatı fəaliyyətə başlayıb. BMT-nin üzvü olan 26 dövlət təşkilatın nizamnaməsini ratifikasiya edib və sənəd qüvvəyə minib. 7 aprel Dünya Səhiyyə Günü kimi qeyd olunur.

### 12 il əvvəl...

**7-9 aprel 2011-ci ildə** Bakıda ilk dəfə Dünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən irəli sürülən "Bakı Prosesi" çərçivəsində təşkil edilən tədbirə BMT-nin Sivilizasiyalar Alyansı, UNESCO, Avropa Şurası, İCESCO və digər təşkilatlar dəstək verib. Forumda 100-dək ölkə təmsil olunub. Prezidentin 27 may 2011-ci il tarixli fərmanı ilə iki ildən bir keçirilən Forumun təşkilinin əlaqələndirici orqanı Mədəniyyət Nazirliyi müəyyən edilib.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5050. **Sifariş:** 892
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641